# İlham Əliyev: "Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz!"





SƏS
№ 181 (6381) 6 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik

"Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq"

Səhifə 2




## 3 OKTYABR
### 1993-CÜ İL - KEŞMƏKEŞLİ YOLUN BAŞLANĞICI

7



## USAİD, Soros, Samanta Pauer triosu

10



# Vətənə sədaqət, xalqa xidmət nümunəsi

Mehriban xanım Əliyeva:

"Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam"

Azərbaycanın çoxəsrlik tarixi dövründə böyük tarixi şəxsiyyətlər yetişmiş, onlar beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilib, ölkəmiz haqqında olan reallıqları dünya ictimaiyyətinə çatdırıblar. Ölkənin ictimai-siyasi, mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadınları cəmiyyətdə ...

Səhifə 8

Bax 7

**Finlandiyalı deputat:** Müharibə başa çatsa da, minalar hələ də dinc, mülki insanları öldürür

Münaqişənin humanitar fəsadlarının aradan qaldırılması ən vacib məsələdir. Bu baxımdan...

Bax 9

**İQTİSADÇI:** Sosial şəbəkələrin çökməsi qlobal iqtisadiyyata da ziyan vurdu

"Dünən axşam sosial şəbəkələrin çökməsi qlobal iqtisadiyyata da ziyansız ötüşməyib. NetBlocks...

Bax 13

## Qəbələ rayonunda şəhid Xeyirbəy Səfərçinovun doğum günü qeyd edilib

## "Sionizm" ittihamından doğan DEBİLİZM!

Səhifə 14

## DİQQƏT:

### Koronavirusa qarşı yeni növ dərman hazırlanır

Avropa Dərman Agentliyi yeni növ koronavirus (Covid-19) xəstəliyinin müalicəsi üçün hazırlanmış "Regkirona" dərmanının Avropa Birliyində istifadəsi üçün tətbiqin...

Səhifə 16

## "Üzərimizdən keçir, başımıza dəyənəklə vururdular" - girovluqda olmuş şəxs erməni vəhşiliyindən danışır



## Ermənilər Gürcüstana buraxılmır - İran avtomobilləri sərhəddə qalıb






## İspan professor: "Hansı ölkə Qarabağa sərmayə qoysa, bundan faydalanacaq"

15



## Yurgen Klopp "Barselona"ya "YOX" dedi

16

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev İbrahim Mustafayevin Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, İbrahim Ənvər oğlu Mustafayev Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli 1245 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Xızı rayonunun Giləzi–Xızı (18 km)–Qarabulaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Respublikasının təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev:

## "Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz!"




"Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlini qoyub. Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Dövlətimizin başçısı 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının açılışında iştirak edib.

Prezident İlham Əliyev Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib. Dövlətimizin başçısı Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub. Sonra Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub. Prezident İlham Əliyev "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısı burada Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Albert Kərimov və "KamAZ" ASC-nin baş direktorunun müavini Rüstəm Şamsutdinovla görüşüb. Albert Kərimov Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev Rüstəm Minnixanovun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Tatarıstan Prezidentinə çatdırmağı xahiş edib. Dövlətimizin başçısı Rüstəm Minnixanovla keçirdiyi görüşləri xatırladıb. Tatarıstan Respublikasının Baş nazirinin müavini Füzuli Beynəlxalq Hava Limanına endiklərini bildirib və bu hava limanının yüksək səviyyədə yaradıldığını qeyd edib.

Bildirilib ki, son illərdə Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətləri bütün digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də uğurla inkişaf edir. Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Tatarıstan Respublikası ilə səmərəli qarşılıqlı əməkdaşlıq münasibətləri var. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan "KamAZ"ın Cəbrayılda "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə birgə servis mərkəzinin yaradılması bunun göstəricisidir.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Dövlətimizin başçısına sənaye parkı haqqında məlumat verildi.

Bildirildi ki, Cəbrayıl rayonunda yaradılacaq sənaye parkı 200 hektar ərazini əhatə edəcək. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı, emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

> **Baxın, görün, Ermənistan indi hansı bəyanatlar verir? Otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur. Bəs, haradadır onların "müzəffər" ordusu? Haradadır "yenilməz" erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı**



Oktyabrın 4-də Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımstansiyanın açılışında iştirak edib.

Dövlətimizin başçısına yarımstansiyada yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, 44 günlük Vətən müharibəsində işğaldan azad edilən Cəbrayıl rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan təmizlənib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yeni yarımstansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib. O cümlədən 110/35/10 kilovoltluq "Qubadlı" və "Zəngilan" yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılıb. "Cəbrayıl" yarımstansiyası yeni avadanlıqlarla komplektləşdirilib, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-Scada dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılıb.

> **Bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uydurmuşdur. Mənə məlumat verildi, mən dedim ki, fikir verməyin. Hansısa əyalət mollasının sözləri ilə biz indi bu fikirlərə əhəmiyyət verəsi deyilik. O kimdir ki?! Sadəcə olaraq, əhəmiyyət verməyin. Amma sonra, əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Onlar İsraili burada harada görüblər?!**

Ardı Səh. 3

Əvvəli Səh. 2

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev oktyabrın 4-də Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin açılış mərasimində iştirak etməsi münasibətilə hərbi hissədə mərmər yaddaş daşı və lövhəsi quraşdırılıb.

Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib.

# İlham Əliyev:

## "Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz!"



"Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq"




**"Heç kim bizim daxili işimizə qarışmasın. Biz hansı ölkə ilə hansı səviyyədə münasibətlər qururuq, bizim öz işimizdir. Axı, biz Ermənistan ilə sıx dostluq əlaqələri olan ölkələrə qarşı iddia qaldırmırıq. Görün, Ermənistanın nə qədər havadarı var, İkinci Qarabağ müharibəsi bunu göstərdi. Görün, bu gün Ermənistanı dəstəkləyən nə qədər ölkə var."**

Dövlətimizin başçısının tapşırığına əsasən işğaldan azad olunan ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Prezident İlham Əliyev daha sonra zirehli döyüş avtomobilini idarə edib, "Harop" pilotsuz uçuş aparatlarına baxıb.

Oktyabrın 4-də həmçinin Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, Baş Plan layihəsinə əsasən şəhərin cənub hissəsində yerləşəcək yeni xəstəxananın ümumi ərazisi 2,6 hektardır. 150 çarpayılıq xəstəxananın ərazisində yoluxucu xəstəliklər korpusu və bir sıra texniki təyinatlı binalar olacaq. Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq. Beləliklə, öz doğma yurdlarına qayıdacaq rayon sakinləri bu tibb ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar. Prezident İlham Əliyev Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimində də iştirak edib. Dövlətimizin başçısına məktəbdə yaradılacaq şərait barədə məlumat verildi.

Bildirildi ki, 960 şagirdin təhsil alacağı yeni məktəb binasında hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcək. Məktəbin həyətində geniş idman meydançası tikiləcək ki, bu da sağlam nəslin yetişməsi üçün vacib amillərdəndir. Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər ən müasir tələblərə cavab verən təhsil ocağında oxuyacaqlar. 145 yaşlı bu tam orta məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəbin tikilməsi də nəzərdə tutulur. Qeyd edək ki, məktəb 1876-cı ildə tikilib istifadəyə verilmişdi. Prezident İlham Əliyev məktəbin təməlini qoyub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub. Prezident İlham Əliyev əvvəlcə Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edərək diqqətə çatdırıb ki, biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək. Buraya gələn hər bir insan bu dağıntıları görür və erməni vəhşiliyinin, erməni vandallığının şahidi olur:

"Cəbrayıllılarla müzəffər Ordumuzun Qələbəsindən sonra ilk görüşümdür və bu görüşü məhz oktyabrın 4-də keçirmək xüsusi məna daşıyır. Çünki düz bir il əvvəl məhz oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini işğalçılardan azad etdi və bu gün bu şanlı tarixi birlikdə qeyd etmək üçün mən cəbrayıllıları onların öz yurduna, vətəninə dəvət etdim. Ona görə "Cəbrayıla xoş gəlmisiniz" demək sözləri ilə öz çıxışıma başlayıram. Amma əminəm ki, bundan sonra mən Cəbrayıla gələndə həmişə cəbrayıllılar mənə "Xoş gəlmisiniz, cənab Prezident" deyəcəklər.

Buna nail olmaq üçün əməli işlər aparılır və bu gün artıq bir neçə obyektin təməl daşı qoyuldu. Bu gün Cəbrayıl şəhərinin baş planının təqdimatı olacaqdır və fəal işlər başlamışdır. Bu gün bir ilə görülmüş işlərə qiymət verərkən, əlbəttə, görürük ki, dövlətimizin, xalqımızın nə qədər böyük potensialı var. Çünki ermənilər tərəfindən tamamilə dağıdılmış ərazilərə cəmi bir ildən sonra həyatı qaytarmaq, insanları qaytarmaq böyük potensialdan xəbər verir. Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək. Buraya gələn hər bir insan bu dağıntıları görür və erməni vəhşiliyinin, erməni vandallığının şahidi olur. Bu vəhşilik, bu vandallıq işğal dövründə törədildi. Müharibə dövründə bu qədər dağıntılar ola bilməzdi. İşğal dövründə ermənilər bütün evləri, binaları kərpic-kərpic sökərək talançılıqla, soyğunçuluqla məşğul olurdular və bütün dünya buna göz yumurdu. Bunu görən beynəlxalq təşkilatlar, bunu görən Ermənistanın havadarları buna, sadəcə olaraq, biganə qalırdılar, göz yumurdular. Amma bu gün bütün dünya bunu görür və bunu görmək istəməyənlər də görməlidirlər. Çünki Cəbrayıl şəhərindən demək olar ki, əsər-əlamət qalmayıb. Cəmi beşmərtəbəli iki bina qalıbdır, onlardan da erməni hərbçiləri istifadə edirdilər və keçmiş xəstəxananı onlar hərbi hissəyə çevirmişdilər. Bundan başqa bütün binaları, bütün tarixi abidələri yerlə-yeksan etdilər.

Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bunun çox böyük rəmzi mənası var idi. Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi. Bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir.

**"Biz heç kimin sərhədini pozmamışıq. Xəritələr var, 1920-ci ilin xəritələri, çar Rusiyasının xəritələri. Gəlsinlər görsünlər sərhəd haradan keçir. Biz harada yerləşmişik oranı Azərbaycan ərazisi sayırıq və düz də edirik. İndi Ermənistan rəhbərliyi ən yüksək səviyyədə açıq-aydın bəyan edir ki, Azərbaycan Gorus-Qafan yolunun müəyyən hissəsində haqlı olaraq yerləşib. Çünki sovet dövründəki xəritələr bunu göstərir. Biz öz ərazimizdəyik"**

Ardı Səh. 4

# İlham Əliyev:

# "Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz!"



"Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq"




Əvvəli Səh. 3

Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir - Böyük Mərcanlı və Nüzgar kəndləri, Füzuli rayonunun 4 kəndi bizim birinci uğurumuz idi. Amma ondan sonra bir həftə ərzində şiddətli döyüşlər getdiyi zaman hər hansı bir yeni yaşayış məntəqəsini azad etmək mümkün olmamışdır. Yəni, müharibənin obyektiv gedişatı bunu diktə edirdi və oktyabrın 3-də Suqovuşan qəsəbəsi və Talış kəndi, eyni zamanda, Cəbrayıl rayonunun bir neçə kəndi işğalçılardan azad edildi. Bu, Ordumuza əlavə mənəvi güc verdi.

Oktyabrın 4-də cəbrayıllıları və bütün Azərbaycan xalqını mən bu xoş müjdə ilə sevindirmişdim - Cəbrayıl şəhəri azad edilmişdir! Bir il bundan əvvəlki dövrə qayıtsaq Qələbəmizin əzəmətini bir daha görərik. Çünki müharibə getdiyi zaman, əlbəttə, bizim gündəlik fəaliyyətimiz qələbəni möhkəmləndirmək, işğal edilmiş bütün torpaqları azad etməkdən ibarət idi. Yəni, əldə edilmiş uğurları təhlil etmək üçün heç vaxt yox idi və buna heç gərək də yox idi. Amma bu gün müharibədən və Cəbrayılın azad olunmasından bir il keçməsindən sonra bunu daha dəqiq və aydın təhlil edərkən görürük ki, bu Qələbənin çox böyük əhəmiyyəti olmuşdur. Eyni zamanda, məhz burada, bu ərazidə düşmən bir neçə xətdən ibarət istehkamlar qurmuşdu və bu istehkamları yarmaq çox böyük qəhrəmanlıq və fədakarlıq tələb edirdi. Bizim əsgər və zabitlərimiz, sözün əsl mənasında, ölümə gedirdilər. Biz şəhidlərimizin canı-qanı bahasına öz doğma torpaqlarımıza qayıtmışıq. Fürsətdən istifadə edərək bir daha əziz şəhidlərimizin xatirəsini yad etmək istəyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Cəbrayıl əməliyyatının əhəmiyyəti, eyni zamanda, ondan ibarət idi ki, Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan bizim digər rayonlara uğurlu addımlarımız mümkün olmuşdur. Cəbrayıldan sonra Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi. Beləliklə, Laçın dəhlizini biz tam nəzarətə götürə bildik. Mən demişəm, bir daha demək istəyirəm ki, Soltanlı və Əmirvarlı kəndləri uğrunda bir neçə gün çox şiddətli döyüşlər gedirdi və bu, o yerlərdən biri idi ki, Ermənistan ordusu orada direniş göstərmişdi və orada böyük istehkamlar qurulmuşdu."

Dövlətimizin başçısı qeyd edib ki, Cəbrayılın azad olunması artıq beş il bundan əvvəl başlamışdı. Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi:

"Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi. Çünki bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi. Düzdür ermənilər o vaxt bu qələbəni kiçiltmək istəmişdilər. Hətta bəyan edirdilər ki, bu, o qədər də böyük əhəmiyyət daşıyan ərazilər deyil və sanki Ermənistan tərəfi qalib gəlmişdi. Mən hələ o vaxt deyirdim ki, biz gəlmişik, onların qazdıqları səngərlərdə yerləşmişik, necə ola bilər ki, Ermənistan burada qalib gəlib?! Biz o vaxt böyük ərazini, əlbəttə ki, o vaxt üçün böyük ərazini - bir neçə min hektarı azad etmişdik və təqribən 9-10 min hektar əraziyə nəzarəti əlimizə keçirmişdik. Təkcə bu istiqamətdə yox, eyni zamanda, Ağdərə istiqamətində çox önəmli strateji yüksəklikləri biz o vaxt götürdük ki, İkinci Qarabağ müharibəsində bu yüksəkliklərin çox böyük əhəmiyyəti olmuşdur. O vaxt biz haqlı olaraq Aprel döyüşlərindəki qələbəni Ordumuzun şanlı Qələbəsi kimi qeyd edirdik və bizim qayıdışımızın da başlanğıcı məhz o vaxt olmuşdur. Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcı idi. Mənim xatirimdədir, o vaxt Dövlətqaçqınkomun sədri Əli Həsənovdan soruşmuşdum ki, belə bir fikrim var, Cocuq Mərcanlı sakinlərini öz kəndinə qaytaraq. O vaxt orada bir ailə - Oktay Həziyevin ailəsi yaşayırdı. Dedim ki, siz öyrənin görün gəlmək istəyirlər, istəmirlər? Artıq uzun müddət keçib, bəziləri Biləsuvarda, bəziləri Bakıda işləyirlər, indi iş yerləri var, qayıtmaq istəyirlər, yoxsa yox? Bir müddət keçəndən sonra Əli müəllim mənə dedi ki, demək olar onların hamısı qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Çünki o vaxt müxtəlif fikirlər var idi ki, torpaqlar azad olunarsa, məcburi köçkünlər qayıdacaq, qayıtmayacaq, onların bir çoxları o yerləri görməyiblər, onların uşaqları, nəvələri. Ancaq o sözlər bir daha göstərdi ki, xalqımız nə qədər böyük xalqdır.

Dərhal göstəriş verdim və Dövlətqaçqınkom qısa müddət ərzində böyük bir qəsəbəni saldı və mən 2017-ci ildə o qəsəbənin açılışına gəlmişdim. O vaxt mərhələli şəkildə 150 evdən ibarət qəsəbə salındı, məktəb, tibb məntəqəsi tikildi. Şuşa məscidinin bənzəri olan məscid inşa edildi, iş yerləri üçün imkanlar yarandı. Mən Cocuq Mərcanlıda olarkən demişdim ki, bu gün Şuşa məscidinin - Gövhər ağa məscidinin bənzərini biz burada inşa etmişik, bu, rəmzi məna daşıyır. Şuşa işğaldan azad olunandan sonra ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi biz bərpa edəcəyik. Dörd il keçəndən, daha doğrusu üç il keçəndən sonra artıq bu sözlər həyatda öz yerini tapmışdır.

**"Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir. Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər"**



Ardı Səh. 5

# İlham Əliyev:

## “Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz!”






"Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq"

Əvvəli Səh. 4

Yəni, bizim Böyük Qayıdışımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.”

Prezident İlham əliyev qeyd edib ki, biz həm beynəlxalq hüququ, həm tarixi ədaləti, həm insani ədaləti bərpa etdik. Çünki bax, bu dağıntıları törədən insan deyil, buna insan demək olmaz. Bunu törədən Azərbaycan xalqına o qədər nifrət etməli idi ki, bax, bu çirkin əməllərə əl atsın: ”O Azərbaycan xalqına ki, ermənilərə vaxtilə qucaq açıb. O Azərbaycan xalqına ki, vaxtilə çar Rusiyası tərəfindən İrandan köçürülmüş ermənilərə burada yer verib. Düzdür, Cəbrayıl rayonunda ermənilər yaşamayıb, heç bir faiz də erməni əhalisi olmayıb. Mən arayışa baxdım, işğaldan əvvəl Cəbrayılda cəmi 10 erməni yaşayırdı. Ancaq Qarabağın digər yerlərində Azərbaycan xalqı onlara yer verdi. Sənə çörək verənə qarşı belə nankorluq, belə qəddarlıq, bu qədər vəhşilik hesab edirəm ki, dünya tarixində misli-bərabəri olmayan barbarlıq və vandallıqdır. Bu gün Ermənistanın havadarları, bax, bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər. Bütün dünya görür. Biz artıq kitablar nəşr etməyə başlamışıq. Biz təqdimatlar keçirməyə başlamışıq. Biz bütün dünyaya erməni vəhşiliyi ilə bağlı dolğun məlumatın verilməsinə nail olacağıq. Bu prosesə start verilib. Bütün dünya görməlidir ki, biz təkcə özümüzü müdafiə etməmişik, öz ərazimizi bərpa etməmişik, biz erməni faşizminin belini qırmışıq. Erməni faşizmi bu bölgədə qol-qanad açıb və xarici havadarlarının dəstəyinə arxalanıb bizim ərazimizi otuz il ərzində işğal altında saxlamışdı.



Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir. Biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik. Baxın, görün, Ermənistan indi hansı bəyanatlar verir? Otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur. Bəs, haradadır onların ”müzəffər” ordusu? Haradadır ”yenilməz” erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı. Daha heç kim dünyada ”müzəffər erməni əsgəri” haqqında bir söz demir. Çünki on min fərarisi olan orduda hansı şücaətdən, hansı qəhrəmanlıqdan söhbət gedə bilər? Heç kim ”yenilməz Ermənistan ordusu” haqqında danışmır. Ermənistan ordusu yoxdur. Biz onu məhv etmişik, dibdənkökdən məhv etmişik. Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib.

Ona görə bu mifologiyaya son qoyuldu. Bizə qarşı olan bütün digər erməni iddialarına tədricən son qoyulmalıdır. Mən bunu demişəm və mən söz deyəndə elə-belə söz demirəm. Bu günə qədər nəyi demişəmsə, hamısını da etmişəm. Ona görə bundan sonra da Ermənistan cəmiyyətində real vəziyyətin düzgün təhlili getməlidir. Artıq mifologiyadan əl çəkməlidirlər. Böyük Ermənistan xülyasından əl çəkməlidirlər. Dənizdən-dənizə qədər mifik Ermənistan xülyasından əl çəkməlidirlər. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər və əl çəkəcəklər. Bunun başqa yolu yoxdur. Məcbur edəcəyik onları.

Əgər kimsə hesab edir ki, müharibə bitdi və indi hər şey necə deyərlər, əvvəlki məcraya düşəcək, səhv edir. Müharibə bitdi, biz qalib gəldik, yeni reallıq yaratdıq, hər kəs bu reallıqla hesablaşmalıdır və hesablaşacaq. Mən deyəndə ki, biz imkan verməyik Ermənistanda yenə də bizə qarşı hansısa təxribat hazırlansın, mən bunu nəzərdə tuturam. Bizim legitim hüququmuzdur, əgər təhlükə görsək, əgər təhlükənin kiçik bir təzahürünü görsək, biz lazımi addımı atacağıq və heç kim bizi dayandıra bilməz, heç kim bizim qabağımızda dura bilməz. İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın havadarları bizim işimizə müxtəlif yollarla əngəl törətməyə çalışdılar - bəziləri bəyanatlar verməklə, bəziləri başqa yollarla onlara praktiki kömək göstərməklə. Ancaq bunun heç bir xeyri olmadı, bundan sonra da olmayacaq.

Ona görə İkinci Qarabağ müharibəsinin bitməsi o demək deyil ki, region əvvəlki vəziyyətə qayıdacaq. Heç vaxt əvvəlki vəziyyət olmayacaq. Bunu hər kəs bilməlidir. Bilirəm ki, bəziləri bundan narahatdır. Bəziləri hesab edirlər ki, onlar indi gələcək proseslərdən kənarda qaldılar. Onların öz işidir. Biz hər halda bütün qonşu ölkələrə əməkdaşlıq platformasını təqdim etdik. Türkiyə Prezidenti tərəfindən təklif olunan əməkdaşlıq platformasına Azərbaycan birinci ölkə olaraq öz dəstəyini göstərmişdir. Əgər bu, kimisə qane etmirsə, o platforma bizə də lazım deyil.

Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır. Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni, bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. İndi reallıq bundan ibarətdir. Son vaxtlar Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılması ilə bağlı verilən ifadələri də biz dəstəkləyirik.

Ardı Səh. 6

# İlham Əliyev:

## “Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz!”



"Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq"

Əvvəli Səh. 5

Biz açıq demişik ki, biz bunu dəstəkləyirik. Hesab edirik ki, bu, region üçün lazımdır. Yəni, artıq bu, müharibənin hər hansı bir riskini aradan götürmək üçün lazımdır. Yəni, bizim üçün bu format kifayətdir - Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda, bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir.

Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq. Biz bu ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik. Bilirsiniz, bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uydurmuşdur. Mənə məlumat verildi, mən dedim ki, fikir verməyin. Hansısa əyalət mollasının sözləri ilə biz indi bu fikirlərə əhəmiyyət verəsi deyilik. O kimdir ki?! Sadəcə olaraq, əhəmiyyət verməyin. Amma sonra, əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Onlar İsraili burada harada görüblər?! Burada bir adam da yaşamır. Burada bir bina da yoxdur. Sübutlar var? Yoxdur. Sübutlar yoxdursa, hər kəs gərək dediyi sözlərə görə cavabdehlik daşısın. Biz imkan verə bilmərik ki, bizə qarşı kimsə əsassız iftira uydursun.

Azərbaycan müstəqil siyasət aparan ölkədir. Bunu hər kəs bilir və birinci il deyil ki, müstəqil siyasət aparırıq. Qonşularımızla və bütün başqa ölkələrlə münasibətləri müstəqil siyasət əsnasında qururuq. Heç kim bizim daxili işimizə qarışmasın. Biz hansı ölkə ilə hansı səviyyədə münasibətlər qururuq, bizim öz işimizdir. Axı, biz Ermənistan ilə sıx dostluq əlaqələri olan ölkələrə qarşı iddia qaldırmırıq. Görün, Ermənistanın nə qədər havadarı var, İkinci Qarabağ müharibəsi bunu göstərdi. Görün, bu gün Ermənistanı dəstəkləyən nə qədər ölkə var. Yəni, biz bu ölkələrlə düşmən olaq? Yox. Bu, ölkələrin suveren hüququnu biz qəbul edirik. Onların suveren işidir. Bəli, haradasa daxili aləmimizdə bundan narahat ola bilərik, bizi incidə bilər, xüsusilə yaxın olan ölkələr Ermənistanla münasibətlərdə xüsusi canfəşanlıq edəndə. Amma biz bunu heç vaxt dilə gətirmirik. Biz hər bir ölkənin suveren hüquqlarına hörmətlə yanaşırıq və tələb edirik ki, bizim suveren hüquqlarımıza hər kəs hörmətlə yanaşsın, bizim daxili işlərimizə müdaxilə etməsin. Belə cəhdlər əvvəllər də olub, onların hamısı uğursuz olub. Bir daha demək istəyirəm, rəsmi qaydada bizə qarşı səsləndirilən ittihamlar sübuta yetirilməlidir. Gəlsinlər, tapsınlar bir xarici vətəndaş var bu bölgədə?





Biz 130 kilometr Azərbaycan-İran sərhədini işğalçılardan təmizlədik. 130 kilometr Ermənistanın işğalı altında idi. O vaxt burada hansı proseslər gedirdi, onu gərək araşdırsınlar. Hansı əlaqələr var idi, bunu biz indi araşdırırıq. Yoxsa durduğu yerdə Azərbaycanı ittiham etmək ki, Azərbaycan hansısa ölkəni Azərbaycana gətirib. Guya Azərbaycanı Azərbaycan xalqı yox, Azərbaycan dövləti yox, hansısa kənar qüvvə idarə edir. Bu, bizə qarşı hörmətsizlikdir. Biz bunu heç vaxt qəbul edə bilmərik. Hər kəs də bunu bilməlidir. Bundan sonra da Azərbaycan öz xarici əlaqələrini və daxili işlərini bildiyi tərzdə planlaşdıracaq. Heç kim bizim işimizə burnunu soxmasın.

O ki qaldı, regionun gələcək inkişafı ilə bağlı, biz əməkdaşlığa hazırıq. Bu yaxınlarda Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşmüşdülər. BMT Baş Assambleyasının sessiyası əsnasında, o cümlədən onların arasında ikitərəfli görüş olmuşdur. Mənə bizim xarici işlər naziri məruzə elədi və bildirdi ki, görüş konstruktiv keçib. Biz də elə bunun tərəfdarıyıq. Eyni zamanda, yəqin Azərbaycan ictimaiyyəti bilir, bu yaxınlarda mən demişdim ki, Ermənistan baş naziri ilə görüşməyə hazıram. O da demişdi ki, hazırdır. Yəni, bu, nəyi göstərir? Bu, onu göstərir ki, bizim gündəliyimiz artıq burada qəbul olunur. Bəziləri yəqin ki, bundan narahatdır. Amma əsas odur ki, Azərbaycanla Ermənistan arasında barışıq olsun, yəni sülh müqaviləsi imzalansın. Biz bunu istəyirik. Sərhədlərin delimitasiyası həyata keçirilsin. Yoxsa, kimsə bizi ittiham edir ki, biz bölgədə sərhədləri dəyişdirmək istəyirik. Nəyin əsasında bizə qarşı bu ittiham səsləndirilir? Bizim sərhədlərimiz 30 il ərzində pozulmuş vəziyyətdə olanda nədənsə Ermənistana qarşı belə ittihamlar irəli sürülmürdü. O qəbul idi? Biz heç kimin sərhədini pozmamışıq. Biz Laçın və Kəlbəcər rayonlarında Ermənistanla həmsərhəd olan bölgələrə 30 ildən sonra gəlmişik. Qar əriyəndən sonra gəlmişik, may ayında. Qar tez ərisəydi, tez gələrdik. Yəni, 30 il ərzində bu sərhəd ermənilərin əlində idi. Əgər sərhəd oradan keçirdisə, qoruyardılar da bu sərhədi. Əgər biz sərhədi pozmuşuqsa, gəlib çıxarardılar da bizi oradan. Gəlib hücum edərdilər. Barışıblar axı onlar bununla, barışıblar. İndi Ermənistan bununla barışdığı bir dövrdə kimsə gəlir deyir ki, biz kiminsə sərhədini pozmuşuq. Biz heç kimin sərhədini pozmamışıq. Xəritələr var, 1920-ci ilin xəritələri, çar Rusiyasının xəritələri. Gəlsinlər görsünlər sərhəd haradan keçir. Biz harada yerləşmişik oranı Azərbaycan ərazisi sayırıq və düz də edirik. İndi Ermənistan rəhbərliyi ən yüksək səviyyədə açıq-aydın bəyan edir ki, Azərbaycan Gorus-Qafan yolunun müəyyən hissəsində haqlı olaraq yerləşib. Çünki sovet dövründəki xəritələr bunu göstərir. Biz öz ərazimizdəyik. İndi Ermənistan bunu deyir. Başqası deyir ki, biz kiminsə sərhədini pozmuşuq, gülməlidir. Ona görə regionda yeni dövr başlayır. Biz hesab edirik ki, bu dövrü müsbət istiqamətə yönləndirmək lazımdır. Hər halda Ermənistanla Azərbaycan arasındakı bu ədavət əbədi olmamalıdır. Bütün bu dağıntılara, barbarlığa, vəhşiliyə baxmayaraq, biz gələcəyə baxmalıyıq. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir. Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər.”

**28 il öncə, oktyabr ayının 3-də Ümummilli Liderimiz Heydər Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. 1998-ci il oktyabrın 11-də isə keçirilmiş seçkilərdə Ulu Öndər Heydər Əliyev yenidən xalqın etimadını qazandı.**

Əgər 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi idisə, 1998-ci il seçkiləri artıq formalaşan dövlətimizin imtahanı sayılırdı. Bu seçimi əsaslandırmaq üçün xalqın yüzlərlə, minlərlə arqumenti, məntiqə əsaslanan dəlilsübutu var idi. Çünki həyata keçirilən islahatlar nəticəsində "Xalq-Heydər, Heydər-Xalq" ifadəsi Prezident və xalq birliyinin möhtəşəm formuluna çevrilmişdi. Beynəlxalq aləm də əmin idi ki, 1993-cü ilin yayında Azərbaycan xalqını qardaş qırğınından, dövləti isə məhv olmaqdan xilas edən Ümummilli Liderimiz Heydər Əliyev növbəti dəfə Prezident seçiləcək. Həmin dövrdə bəzi qüvvələr müdrik siyasətçinin əleyhinə təbliğat aparırdı. Müstəqilliyin iti-



# 3 OKTYABR

## 1993-CÜ İL - KEŞMƏKEŞLİ YOLUN BAŞLANĞICI

### Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəni vətəndaş qarşıdurmasından xilas etdi

rilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ancaq növbəti seçkidə də Azərbaycan xalqı ayıq olmalı idi. 1988-1993-cü illərin faciə və gərginliklərini yaşamış hər bir kəs taleyüklü seçim məqamında qətiyyət və siyasi iradə nümayiş etdirdi. Azərbaycan xalqı, 1993-cü ildə olduğu kimi, 1998-ci ildə də düzgün seçim etdi. Əslində, xalqın başqa seçimi ola da bilməzdi. Çünki 1993-cü ilin yayına - Milli Qurtuluşa qədər ölkədə baş verənlər heç kəsin yadından çıxmamışdı. Elə Qurtuluşdan sonra baş verənlər də hamının gözü qabağında idi. Ən başlıcası, ölkədə daxili sabitlik yaranmış, çörək qıtlığı, ərzaq çatışmazlığı aradan qaldırılmış, insanların bir-birinə və dövlətə olan inamı bərpa edilmişdi. Daha sonra isə ölkəmizə beynəlxalq aləmdə yeni nüfuz qazandıran qanunların qəbul edilməsinə, köklü islahatlara start verilmişdi. Nəticədə, Heydər Əliyevin birinci Prezidentliyi dövründə Azərbaycana 10 milyardlarla dollar gəlir gətirəcək "Əsrin müqaviləsi" imzalanmış, bütün beynəlxalq təşkilatlara inteqrasiyamız təmin edilmiş, dünyanın aparıcı dövlətləri ilə münasibətlərimiz isə tərəfdaşlıq və strateji müttəfiqlik səviyyəsinə çatdırılmışdı. Müstəqillik dövründə ilk dəfə iqtisadi dirçəlişə nail olmağımız da məhz Heydər Əliyevin Birinci Prezidentliyi dövrünə - 1996-cı ilə təsadüf edirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, yəni Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərti ilə həllinin zəruriliyi də beynəlxalq təşkilatlar səviyyəsində ilk dəfə 1996-cı ildə etiraf edilmişdi.

Ölkədə hüquqi islahatlara da həmin dövrdən başlanmış, 1995-ci ildə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edilərək, yeni parlament seçildi. Ümumiyyətlə, 1993-cü ilin oktyabrından 1998-ci ilin oktyabrına qədər Azərbaycanda həyata keçirilən tədbirlər belə deməyə əsas verirdi ki, oktyabrın 11-də Ulu Öndər Heydər Əliyevin qələbəsi şəksizdir. Proqnozlar özünü doğrultdu və Ümummilli Liderimiz Heydər Əliyev 76,1 faiz səs toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi.

Ulu Öndərin İkinci Prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər diqqəti cəlb edir. Belə ki, 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz, yaxud orta hesabla ildə 3,6 faiz artmışdı. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru - emal sənayesi də inkişaf edirdi. Göstərilən müddətdə emal sənayesi sahələrində məhsul istehsalı 24 faiz, o cümlədən, yeyinti sənayesində 22 faiz, taxta məmulatı istehsalında 3,5 dəfə, metallurgiya sənayesində 2,5 dəfə artmışdı. Sənayenin inkişafı ilə yanaşı, Ümummilli Lider respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox hüquqi-normativ sənəd qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq, 872 min kəndli ailəsinə 1372,8 min hektar torpaq sahəsi, 63 mindən artıq maşın və traktor, 4 min qaramal tövləsi, 2300 qoyun yatağı, 450 min baş qaramal, 1 milyon 900 başdan artıq davar verildi, ölkədə 2600-dən çox kəndli-fermer təsərrüfatı yarandı. 1997-2002-ci illərdə istehsal edilən kənd təsərrüfatı məhsullarının 99,01 faizi məhz onların payına düşürdü. Bu məhsulların satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdı.

Azərbaycanın son otuz beş ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır. Ümummilli Liderimiz Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

1993-cü il 3 oktyabr seçkilərinin nəticələrini biz bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında görürük. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev respublikamızı iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına qaldırıb. Bu gün Azərbaycan yoxsulluğun və işsizliyin azaldılmasına, adambaşına düşən ümumi daxili məhsul istehsalının artırılmasına, ordu quruculuğunun sürətləndirilməsinə, ölkənin beynəlxalq aləmə inteqrasiyasına və bir çox göstəricilərə görə dünyanın öncül dövlətləri sırasındadır. Bütün bunlar isə 1993-cü il 3 oktyabr prezident seçkilərinin nəticəsi kimi qiymətləndirilir.

Bu gün isə Ulu Öndərdən başlanılan BÖYÜK YOL bu gün Onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Ən başlıcası Heydər Əliyev irsi, dahi rəhbərin ölməz ideyaları insanların şüuruna möhkəm həkk edilib. Bu gün hər birimiz yaxşı bilirik ki, Ulu Öndərimizin ideyalarına sadiq olmaqla müstəqilliyimizin daha da möhkəmlənməsinə dəyərli töhfəmizi əsirgəmirik. Azərbaycan bütün sahələrdə inkişaf edir, beynəlxalq layihələrin iştirakçısıdır, möhkəm siyasi və hüquqi dövlətçilik strategiyasına malikdir.

2016-cı ilin aprelin əvvəllərində düşmənin cəbhə xəttindəki təxribatlarının qarşısının alınmasında, bir neçə vacib yüksəkliyin işğaldan azad edilməsində, nəhayət, 30 illik torpaq həsrətinə Prezident İlham Əliyevin apardığı "Dəmir siyasəti" ilə Güclü Azərbaycan ordusunun igid əsgər və zabitlərinin rəşadəti nəticəsində İkinci Vətən Müharibəsi 44 gündə Qələbə Zəfəri ilə başa çatdı. Bütün bunlar isə 1993-cü il 3 oktyabr prezident seçkilərinin nəticəsi kimi qiymətləndirilir.

***RƏFİQƏ KAMALQIZI***

# Yaponiya saytı Azərbaycanın müharibə vaxtı kamikadze dronlardan bacarıqla istifadəsi barədə məqalə yayıb

Yaponiyanın "news.yahoo.co.jp" saytı Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərini ötən ilin payızında azad edərkən kamikadze dronlardan bacarıqla istifadə etməsi barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, oktyabrın 5-də yaymlanan "Müstəqilliyinin 30-cu ildönümünü qeyd edən Türkmənistan Türkiyə pilotsuz uçan aparatlarını (PUA) nümayiş etdirir" başlıqlı məqalədə Azərbaycan hərbçilərinin bu dronları yüksək peşəkarlıqla istifadə etməsi nəticəsində qələbənin əldə olunmasına göstərdiyi təsirdən bəhs olunur.

Müəllif, hərbi sahədə ekspert və tədqiqatçı Hitoşi Sato 2021-ci ilin sentyabrında Aşqabadda keçirilən hərbi paradda Türkiyənin "Baykal" şirkətinin "Bayraktar TB2" dronlarının nümayişi barədə ətraflı məlumat verir. Bildirir ki, Türkmənistan Azərbaycan-Ermənistan müharibəsində özünü yüksək səviyyədə nümayiş etdirən həmin dronları əldə etmək üçün 37 milyon dollar ödəyib.




Məqalədə, həmçinin NATO üzvü olan Polşa və Litvanın da Türkiyədən "Bayraktar TB2" dronlarını aldığı qeyd edilir. Bildirilir ki, Albaniya və Pakistan da bu PUA-lardan almaq niyyətlərini açıqlayıblar.

Türkiyənin malik olduğu yüksək texnologiyaları bütün dünyada yaydığını vurğulayan müəllif bu dronların Azərbaycan ilə yanaşı, Ukrayna və Qətər tərəfindən də sifariş edildiyini bildirir. Qeyd edir ki, ötən ilin payızında Azərbaycanın Ermənistan ordusu tərəfindən 30 ilə yaxın işğal altında qalan ərazilərinin azad olunması əməliyyatlarına başlanarkən, Türkiyə PUA-larından geniş istifadə Azərbaycan Silahlı Qüvvələrinin üstünlüyü əldə etməsinə mühüm təsir göstərib.

Həmin PUA-ların, həmçinin "Kamikadze-dron", "Kamikadze zərbəsi" və "Özünü öldürən dron" adlandırıldığını qeyd edən müəllif, bu silahın hədəfi seçməsi və özünüməhv yolu ilə bu hədəfi də məhv etməsi barədə ətraflı məlumat verir. Vurğulayır ki, güclü partlayış törətməyə qadir olan bu dronlar düşmənin həm canlı qüvvəsini, həm də hərbi texnikasını yüksək dəqiqliklə məhv edir.

Məqalədə, eyni zamanda bu silahın kiçik və orta dövlətlər üçün faydalı olmasından, onların böyük və güclü qonşularından müdafiəsi üçün xüsusi əhəmiyyətindən də bəhs edilir. Vurğulanır ki, bu aparatlar kiçik ölkələrin imperiya xülyasına qapılan böyük dövlətlərin qarşısını almasında mühüm rol oynaya bilər. Məqaləyə Azərbaycan Müdafiə Nazirliyi tərəfindən Vətən müharibəsi vaxtı erməni hədəflərinin dronlar vasitəsilə yüksək dəqiqliklə məhv olunmasının əks etdirildiyi videolar da əlavə edilib.

# Finlandiyalı deputat: Müharibə başa çatsa da, minalar hələ də dinc, mülki insanları öldürür

Münaqişənin humanitar fəsadlarının aradan qaldırılması ən vacib məsələdir. Bu baxımdan torpaqların minalardan təmizlənməsi xüsusi əhəmiyyət daşıyır. Müharibə başa çatsa da, bu minalar hələ də dinc, mülki insanları öldürür.



Bu fikri AŞPA-nın Ermənistan üzrə həmməruzəçisi, finlandiyalı deputat Kimmo Kilyunen deyib.

O, bildirib ki, minaların zərərsizləşdirilməsi olduqca mürəkkəb prosesdir.

"Bütün beynəlxalq ictimaiyyəti bu işə dəstək verməyə çağırıram. Burda qaldırılan müharibə əsirləri məsələsinə gəldikdə isə, onlar üçtərəfli bəyanatdan xeyli sonra həbs edildiyindən, Azərbaycan onları müharibə əsiri hesab etmir. Bu mövqe məruzədə də əks olunub. Lakin buna baxmayaraq, Azərbaycan xoş niyyət nümayiş etdirərək, onların bir çoxunu azad edib", - deyə K.Kilyunen vurğulayıb. O, qeyd edib ki, hərbi əməliyyatlardan yayınmaq lazımdır. Azərbaycanın atdığı bu addım iki tərəf arasında gələcək pozitiv təmaslar üçün zəmin rolunu oynaya bilər. Münaqişə bitib, barışıq və qarşılıqlı etimad yaratmaq mərhələsi başlayıb. O, məcburi köçkünlərin doğma torpaqları məsələsinə də toxunaraq, ərazilərin minalardan təmizlənməsinin vacibliyini bir daha xatırladıb.

# Vətənə sədaqət, xalqa xidmət nümunəsi

Azərbaycanın çoxəsrlik tarixi dövründə böyük tarixi şəxsiyyətlər yetişmiş, onlar beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilib, ölkəmiz haqqında olan reallıqları dünya ictimaiyyətinə çatdırıblar. Ölkənin ictimai-siyasi, mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadınları cəmiyyətdə böyük nüfuz sahibi olduqlarını əməlləri ilə təsdiqləyib. Təbii ki, qadın gözəlliyi, qadın iradəsi, saflığı və sədaqəti xalqımızın milli-mənəvi dəyərləri sistemində formalaşmışdır. Azərbaycanın mütəfəkkir qadınlarının bütün sahələrdə əməyi olub və Azərbaycan xanımının dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rola malik olması bir həqiqətdir. Qətibə xanım, Sara xatun, Məhin banu, Xeyransa bəyim, Tuti Bikə və başqaları Azərbaycan qadınının nümunəsi kimi tarixin dönəmlərində şəxsiyyətləri və əməlləri ilə özlərini təsdiqləmişdilər. Hər zamanın böyük simaları olub. Hər dövrün yetişdirdiyi ziyalı bir missiya olaraq Azərbaycanın sosial, iqtisadi, mədəni inkişafına imza ata biləcək məsələləri öz üzərinə götürməklə xalq qarşısında vətəndaşlıq borcunun ödənilməsinə cəhd edir.



## Mehriban xanım Əliyeva:

**“Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam”**

Bu gün müasirimiz olan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci Xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da məhz belə qadınların davamçısı olaraq Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malikdir. Mehriban xanım Əliyevanın vətənpərvərliyi, milli heysiyyat kimi mənəvi dəyərləri, məhz onu hər bir insanın doğma simasına çevirib. Hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışan Mehriban xanım Əliyeva həqiqətən də insanların ümid, pənah yeridir. Xeyirxahlıq, haqq-ədalət ünvanıdır. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Hər bir addımı böyük rəğbətlə qarşılanan Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir. Mehriban xanım Əliyeva isminə böyük bir məhəbbət və ehtiram hissi yaratmışdır. Öz varlığı ilə məmləkətinə şərəf gətirən Mehriban xanım Əliyeva Azərbaycan qadını, Azərbaycan İnsanı obrazını yaradıb. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxıb. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail olub.

### “AZƏRBAYCAN XALQI ONA ÇOX BÖYÜK RƏĞBƏTLƏ, SEVGİ İLƏ YANAŞIR”

Azərbaycan Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan tarixində ilk dəfə olaraq Birinci xanım institutunu formalaşdırdı. Azərbaycan Prezidenti İlham Əliyevin Mehriban Əliyeva haqqında söylədiyi fikirləri vurğulamaq yerinə düşər: ”Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır”.Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsində biz onun həqiqətən də Cənab Prezidentin silahdaşı olduğunun bir daha şahidinə çevrildik. Müharibədən sonrakı mərhələdə də Mehriban xanım Əliyevanın dövlət başçısı ilə birlikdə işğaldan azad olunan ərazilərə səfər etmişdir. İşğaldan azad olunan ərazilərdəki erməni vandallıqları onu dəhşətə gətirmiş və sonradan öz paylaşımlarında bunu ictimaiyyətin diqqətinə çatdırmışdır.

### ”VƏTƏN NAMİNƏ CANINDAN KEÇMƏYƏ HAZIR OLAN OĞULLAR TƏRBİYƏ ETMİŞ VALİDEYNLƏRİN QARŞISINDA BAŞ ƏYİRƏM”

Hər zaman öz paylaşımları ilə şəhid analarına təsəlli olan Mehriban Əliyeva rəsmi ”İnstaqram” səhifəsində Vətən müharibəsində şəhid olanların xatirəsinin yad edilməsilə bağlı etdiyi paylaşımda bildirib ki, Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib: ”Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir. Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu! Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq!”Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir. Belə ki, Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirib və bu davamlıdır.

Mehriban Əliyeva rəsmi ”İnstaqram” səhifəsində 27 sentyabr - Anım Günü ilə əlaqədar etdiyi paylaşımda qeyd edib: ”Bu gün biz Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edirik. Şanlı Zəfər naminə həyatlarını qurban vermiş qəhrəmanlarımızı anırıq. Onlar əsl vətənpərvərlik və Vətənə sədaqət nümunəsi nümayiş etdirərək öz qorxmazlığı, cəsarəti, möhkəm iradəsi və ruh yüksəkliyi sayəsində işğalçını darmadağın edib, ölkəmizin ərazi bütövlüyünü bərpa ediblər”.

### İNSAN ÖZ YOLUNU, PEŞƏSİNİ SEÇƏNDƏ HƏR HANSI BİR İŞİNƏ, ƏMƏYİNƏ VİCDANLA YANAŞMALIDIR

44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Şuşada olan Yuxarı Gövhərağa, Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

Həqiqətən də səmimi hisslər, səmimi münasibət, səmimi görüşlər Mehriban xanım Əliyevanı insanlara daha da yaxınlaşdırır. Xalqın ən çətin və şad günündə onlarla fikirlərini paylaşan Mehriban Əliyevanın ”Sizin Mehriban” ifadəsi onunla isti münasibətin daha da sıx olmasına səbəb olub. İnsanlar onu doğması tək qəbul edir və ən çətin anlarında həqiqətən də ümid qapılarına üz tuturlar. ”Vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır”, - deyən Mehriban xanım Əliyeva gələcək fəaliyyətini, məhz bu prinsiplər əsasında quracağına əminlik ifadə etmişdir: ”Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam”. Həqiqətən də belə oldu. Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb.

*NƏZAKƏT ƏLƏDDİNQIZI*

# 3 oktyabr 1993-cü ildən 3 oktyabr 2020-ci ilə gedən müqəddəs və tarixi yol

## Eldar İbrahimov Heydər Əliyevin ilk dəfə Prezident seçilməsindən, Suqovuşan və Cəbrayılın işğaldan azad edilməsinin bir illiyindən yazır



3 oktyabr 1993-cü il.

Tarixə qızıl hərflərlə yazılan və həkk olunan gün.

Həmin gün Azərbaycan xalqının Xilaskar oğlu, Ümummilli Lider, Ulu Öndər Heydər Əlirza oğlu Əliyevin ilk dəfə Prezident seçildiyi gündür.

Həmin gün Ulu Öndərimiz ilk dəfə müstəqil Azərbaycanın Prezidenti seçildi və Azərbaycan tarixində yeni mərhələnin başlanğıcını qoydu.

Əslində 1993-cü ilin iyun hadisələrindən, Gəncə qiyamından sonra Azərbaycan xalqının və keçmiş yarıtmaz AXC-Müsavat hakimiyyətinin israrlı, təkidli xahiş və tələblərdən sonra Ulu Öndər 15 iyun tarixində Ali Sovetin sədri vəzifəsinə seçilmiş, cəmi 9 gün sonra, eks-prezident Əbülfəz Elçibəyin Bakını qəfil tərk etməsindən sonra, 24 iyun tarixində isə ölkə Prezidentinin səlahiyyətlərinin icrasına başlamaqla, çiyinlərini Azərbaycan naminə növbəti dəfə ağır yükün altına vermis, Lider qətiyyəti ilə bütün məsuliyyəti öz üzərinə götürmüşdü. Bununla da Azərbaycanda yeni mərhələnin əsası qoyulmuşdu.

Qısa müddətdə də ölkə AXC-Müsavat cütlüyünün səriştəsiz, bacarıqsız siyasəti üzündən düşmüş olduğu ağır bəladan-vətəndaş müharibəsindən, qardaş qırğınından, xaos və anarxiyadan, dağılmaq, parçalanmaq, müstəqilliyini itirmək, banan respublikasına çevrilmək təhlükəsindən xilas edilmişdi.

Ölkədə qanunsuz silahlı dəstələrin varlığına son qoyulmaqla, əsl ordu quruculuğuna başlanılmışdı. Azərbaycan xalqı sözün əsl mənasında öz Xilaskarına qovuşmuşdu və onu israrlı və təkidli şəkildə ikinci hakimiyyətə dəvət etməyindən məmnun qalmışdı.

Elə bütün bunlara görə, 1993-cü ilin3 oktyabr tarixində demokratik və alternativ əsaslarla keçirilən Prezident seçkilərində Azərbaycan xalqının mütləq əksəriyyətinin dəstəyini, səsini əldə edərək, inamlı qələbə qazanaraq, ölkə Prezidenti seçilmişdi. Qədirbilən Azərbaycan xalqı birmənalı şəkildə öz Xilaskarına etimad, etibar etmişdi, gələcəyini onunla bağlamışdı.

Odur ki, 3 oktyab tarixinin Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan dövlətçiliyinin tarixində xüsusi yeri və rolu vardır. Azərbaycan dövləti var olduqca, Azərbaycan xalqı yaşadıqca, 3 oktyabr tarixi də həmişə yaddaşlarda, hafizələrdə əbədi olaraq qalacaq, xatırlanacaq.

Qeyd etdiyim kimi, 3 oktyabr tarixindən sonra Azərbaycanda inkişaf, quruculuq, dövlətçilik yolunda yeni mərhələ başlanmışdır. Elə bir mərhələ ki, qısa müddətdə Azərbaycanı nəinki regionun, bütövlükdə dünyanın Lider dövlətləri sırasına çıxardı.

Elə bir mərhələ ki, dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanı əsas aktorlardan, əsas oyunçulardan, söz sahiblərindən birinə çevirdi.

Prezident seçilməsindən cəmi 11 ay sonra məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, iti, parlaq zəkası sayəsində baş tutan, imzalanan tarixi "20-ci əsrin müqaviləsi" Azərbaycanı yenidən dünyaya Günəş kimi doğdu və parlatdı.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Qədim və Yeni İpək yolunun bərpası kimi layihələr həyata vəsiqə aldı və Azərbaycanın imzasını imzalar içində əbədi bərqərar etdi.

Bunların hamısı 24 iyundan başlanan və 3 oktyabrdan sonra davam edən tarixi yol, Xilaskarlıq missiyası saəyəsində baş tutdu, gerçəkləşdi.

Bütün bunlara görə Tarixi və Bütöv Şəxsiyyət, Liderlər Lideri Heydər Əlirza oğlu Əliyevə borclu və minnətdarıq.

Bəli, ikinci müstəqil Azərbaycan və onun indiki Lideri, Müzəffər, Qalib Ali Baş Komandan cənab İlham Əliyev Heydər Əliyevin, Ulu Öndərin Şah əsərləridir.

***

Dünən, 3 oktyabr 2021-ci ildə növbəti tarixi gün yaşandı, yaşadıq.

Düz bir il öncə Ali Baş Komandanın Rəşadətli Ordusunun, Vətən sevdalılarının qəhrəmanlığı, igidliyi sayəsində olduqca starteji əhəmiyyətə malik olan keçmiş Madagiz, indiki Suqovuşan qəsəbəsi işğaldan azad edildi, Azərbaycanına qovuşduruldu.

Azərbaycan torpaqlarının, Qarabağın işğaldan azad edilməsini bəlkə də Ulu Öndər qədər istəyən, bunun üçün var gücü ilə çalışan kimsə yox idi.

Hakimiyyətdə olduğu 10 il ərzində bir an olsun belə Qarabağı yadından çıxarmadı, onun işğaldan azad olunması üçün bütün enerjisi sərf etdi və elə bir potensial qoyub getdi, elə bir yol-iz açdı ki, o potensial, o yol, o iz bizi mütləq Qələbə və Zəfərə aparmalıydı və apardı da.

Siyasi kursunun layiqli və uğurlu davamçısı ölkə Prezidenti cənab İlham Əliyev Ulu Öndərə verdiyi sözünə, vədinə əməl etdi, Suqovuşanı və işğal altındakı digər torpaqları işğaldan qurtardı, Azərbaycana tarixi Qələbə və Zəfər qazandırdı, düşməni diz çökdürdü.

Bununla həm də Ümummilli Liderimizin, atasının ruhunu sevindirdi. İstər 3 oktyabr 2020-ci il, istərsə də 3 oktyabr 2021-ci il tarixlərində ruhu rahatlıq, huzur tapdı.

Bəli, dünən Suqovaşının azad olunmasının bir ilinin tamamında Ali Baş Komandan yenidən Qarabağa, Suqovuşana, Talışa, Cəbrayıla, eləcə də İkinci Vətən Müharibəsinin bütün ağırlıqlarını çiyinlərində daşımış Qəhrəman Tərtər və Bərdədə oldu.

Tarixi gündə bir sıra açılışlara, təməlatmalar imza atdı, Talış və Suqovuşanda Dövlət bayrağını ucaltdı.

Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını etdi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoydu. Bununla yanaşı, Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi və pravoslav kilsələrində oldu, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını etdi.

Bəli, heç kim üçün sir deyil ki, Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi.

Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi.

Suqovuşanda tarixi çıxışı zamanı dövlətimizin başçısı "Düşmən yəqin ki və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə – keçən il oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi. Suqovuşan qəsəbəsinin və Talış kəndinin azad edilməsinin digər əhəmiyyətli tərəfi ondan ibarətdir ki, birinci azad edilmiş kəndlərdən sonra, – birinci kəndlər sentyabrın 27-də müharibənin ilk günündə azad edilmişdi – 6 kənd, – oktyabrın 3-nə qədər hər hansı bir yaşayış məntəqəsi azad edilməmişdi. Bunun təbii səbəbləri var idi, hazırlıq gedirdi, manevrlər gedirdi, şiddətli döyüşlər gedirdi. Ancaq müharibənin ilk günündə əldə edilmiş qələbələrdən sonra növbəti yaşayış məntəqələrinin azad edilməsi, əlbəttə ki, ordumuza, xalqımıza əlavə güc, mənəvi güc verdi və müharibənin yeddinci günündə səkkiz kəndin azad edilməsi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsi bizə böyük mənəvi üstünlük verirdi"-deyərək, bildirdi ki, müharibə ilə bağlı təhlillər onu bir daha göstərir ki, bu müharibənin uduzan tərəfi məhz Serjik Sarkisyan və onun kimilərdir.

"Serjikin kişiliyi çatırsa, gəlsin bura. O, kişilikdən danışır. Qafqazda kişilikdən danışır. Birincisi Qafqaza bunun millətinin heç bir aidiyyəti yoxdur. Onlar gəlmədirlər, haradan gəliblər, hamı yaxşı bilir. İkincisi, kişilikdən danışırsansa, gəl kişi kimi buraya. Bax, mən burada dayanmışam. Sənin "Madagiz" adlandırdığın Suqovuşanda dayanmışam. Kişiliyin varsa, gəl buraya. Yoxsa orada – İrəvanda oturub banlamaqla özündən qəhrəman düzəldə bilməzsən"-deyən Müzəffər Ali Baş Komandan bir daha düşmən üzərində mənəvi və siyasi gücünü, qətiyyətini, cəsarətini nümayiş etdirdi.

Hələ də pusquda dayanan, marıqda yatan ermənipərəst antiAzərbaycan dairələrinə meydan oxudu.

***

Onu da qeyd edək ki, ötən il Suqovuşanın azad edilməsindən cəmi bir gün sonra, 4 oktyabr tarixində ilk rayonumuz, rayon mərkəzimiz Cəbrayıl və Cəbrayılın bir neçə kəndin işğaldan azad olundu və Azərbaycan xalqının tarixinə qızıl hərflərlə həkk etdirildi.

Bu gün həm də Cəbrayılın işğaldan azad olunmasının birinci ildir.

Artıq təqvimdə qara tarixlər, işğal tarixləri yoxdur, təqvimdə Zəfər və Qələbə tarixləri vardır.

Elə bu əlamətdar gündə dövlət başçısı Cəbrayılda oldu, orada "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoydu, 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının, Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etdi.

Həmçinin, Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini, o cümlədən, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoydu.

Eyni zamanda, Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Cəbrayıl ictimaiyyətinin mümayəndələri ilə görüşündə Müzəffər Ali Baş Komandan bir daha Ermənistana və onun havadarlarına sərt xəbərdarlığını etdi, mesajını ötürdü, qarşı tərəfi Azərbaycan və Türkiyə ərazilərinə iddialardan əl çəkməyə çağırdı.

Bəyan etdi ki, bundan sonra Ermənistan cəmiyyətində real vəziyyətin düzgün təhlili getməlidir.

Artıq mifologiyadan əl çəkməlidirlər. Böyük Ermənistan xülyasına son qoymalıdılar.

Dənizdən dənizə qədər mifik Ermənistan xülyasından, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər və əl çəkəcəklər.

Bunun başqa yolu yoxdur, çünki başqa yolları da qalmır.

Ali Baş Komandanımızın da bəyan etdiyi kimi, biz qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik.

Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.

Qələbələr, Zəfərlər bizimdir, bizimlədir və bizimlə olacaq.

Hələ çox Qələbələrə və Zəfərlərə imza atacağıq!

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin (MM) İntizam komissiyasının sədri, professor***

## <u>İQTİSADÇI:</u> Sosial şəbəkələrin çökməsi qlobal iqtisadiyyata da ziyan vurdu



"Dünən axşam sosial şəbəkələrin çökməsi qlobal iqtisadiyyata da ziyansız ötüşməyib. NetBlocks şirkətinin hesablamalarına görə, Facebook, Instagram, Twitter və WhatsApp və Facebook Messenger-in çalışmadığı hər saat dünya iqtisadiyyatında 215 milyon dollar xərc yaradıb. Həmin şəbəkələrin 3 saat ərzində çalışmamaları dünya üçün 645 milyon xərc demək idi". SİA xəbər verir ki, bunu açıqlamasında iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov deyib.

İqtisadçı bildirib ki, NetBlocks şirkətinin Dünya Bank, ITU, Eurostat və ABŞ Statistikasının məlumatları əsasında apardığı hesablamalar görə, əgər internet qlobal olaraq 1 gün aktiv olmaza o zaman dünya iqtisadiyyatına 51 milyard 423 milyon dollar ziyan dəyə bilər: "Sadəcə Facebook-un 1 gün çalışmaması isə dünya üçün 1 milyard 291 milyon dollar xərc demək olacaq. Sosial şəbəkələrin bir gün "donması" dünyada 5 milyard 165 milyon dollar xərc yarada bilər. Qeyd edək ki, NetBlocks şirkəti statistik məlumatlar əsasında sosial şəbəkələrin və eləcə də internetin çalışmamasının hər bir ölkəyə vurduğu ziyanı da ayrıca hesablayır. Bu zaman ölkə iqtisadiyyatların ölçüsü əsas meyar kimi götürülür. Son problemlərdən sonra 159 milyard dollar aktivləri olan Facebook şirkətinin səhmləri 5 faizə yaxın ucuzlşaraq hazırda 326 dollara təklif olunur".



# USAİD, Soros, Samanta Pauer triosu



## Qərəzli dairələrin Azərbaycana qarşı hibrid müharibəsi

ANALİTİK

**Corc Sorosun yaratdığı, eləcə də nəzarətində saxladığı USAİD vasitəsilə maliyyələşdiridiyi Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi (Organized Crime and Corruption Reporting Project) (OCCRP) növbəti dəfə Azərbaycan hakimiyyətinə qarşı cəfəng iddialara söykənib. USAİD-in qərəz və şər hədəfinə Azərbaycanın ərazi bütövlüyünü bərba edən ölkə Prezidenti ilə yanaşı bir sıra digər müstəqil siyasət yürüdən ölkə başçıları da daxildirlər. Məqsəd isə bəri başdan aydındır - birinci növbədə müstəqil siyasət yürütdüklərinə görə nüfuzlu siyasi xadimlərə təzyiq rıçaqlarını artırmaq, ikincisi isə ölkələr daxilində süni narazılıqlar və ixtişaşlar yaramaq.**

Söz yox ki, USAİD-in bu dezinformasiyanı mütləq şəkildə son vaxtlar ölkəmizə qarşı olan digər prosesslər kontekstindən də baxmaq və təhlil etmək vacibliyi yaranır.

Şübhəsiz ki, bənzər proseslər daim Azərbaycana qarşı nifrətini gizlətməyən Corc Sorosun əlunun altında hazırlanır və eyni zamanda, bu proseslərin sürətlənməsində onun müəmmalı yollarla hakimiyyətə gətirdiyi Baydeni administrasiyası özəl rol oynamaqdadır. Prezident təyin etməkdən və bu yolla faktiki hakimiyyətə yiyələndikdən sonra başladı. Təkcə bir fakta diqqət yetirək və müqayisə edək - respublikaçıların iqtidarı zamanı bu kimi hallar demək olar ki, yox səviyyəsində idi, lakin demokratların zor-bəla ilə hakimiyyətə sırınmasından sonra xüsusilə Azərbaycan iqtidarına qarşı ittihamlar, şər-böhtanlar, qərəzli təzyiqlər artmağa başladı. Bu isə artıq özü-özlüyündə hər şeyi bütün çılpaqlığı ilə ortaya qoymaqdadır.

Təbii ki, vaxtilə Azərbaycandan qovulmuş Soros sadəcə həzm edə bilmir ki, İlham Əliyev onun dəstəklədiyi və bu regionda forpostu olan Ermənistanı diz çökdürdü. Bu qələbə bütün dünyaya nümayiş etdirdi ki, Corc Sorosdan və ümumilikdə ABŞ siyasətindən fərqli siyasət yürütmək qələbəyə qətirir.

Və bu, Soros üçün, ABŞ-ın mövcud hakimiyyəti uçun əsl fəlakətdir. Belə ki, bu, presedent yaradır. Və bu presedentin bir sübutunu biz Əfqanistanda da gördük. Yəni bütün dünya xalqları gördü ki, ABŞ-ın ən yüksək səviyyələrdə dəstəklədiyi Ermənistanı Azərbaycan cəmi ay yarıma tam məhv edir. Şübhəsiz ki, bu ABŞ-ın supergüc blefinin üstünün açılması idi və əfqanlar da bundan dərhal isifadə etdilər.

Təsəvvür edin ki, bundan sonra, ABŞ-ın nəzarətində onlar bütün xalqlar artıq reallıqları düzgün qiymətləndirib ABŞ-ın təsir dairəsində sıxmağa çalışacaqlar. Nəticədə Soros indiyənədək rəngli inqilablara investisiya etdiyi milyardları itirəcək, odur ki, o, əlavə pul investisiya etməyə başlayıb.

Və maraqlısı odur ki, Soros özünün təxribatları üçün ABŞ-ın dövlət büdcəsindən istifadə edir (!!!) Sorosun planlarını əsas icraçısı isə şübhəsuz ki, USAİD-dir. Soros üçün bu proseslər xüsusilə, USAİDin rəhbərliyinə Samanta Poueri gətirdikdən sonra daha da asanlaşıb. Belə ki, Samanta Paueri hakimiyyət pillələri ilə qaldıran məhz Corc Soros olub. Biz SİA olaraq Smanta Pauerin Sorosun köməkliyi ilə yüksəlişi barədə aşağıdakı yazıda məlumat vermişdk.

https://sia.az/az/news/politics/856893.html

İkincisi isə Samanta Pauer hazırda ABŞ-ın ən qatı anti-Azərbaycan, antitürk dövlət rəsmisidir və Azərbaycana qarşı yönəlmiş fəaliyyətləri böyük həvəs və canfəçanlıqla edəcək.

### OCCRP - Sorosun təsir və təhdid şəbəkəsinin bir hələqəsidir

Artıq heç kimə sirr deyil ki, OCCRP təşkilatını arxasında Corc Soros dayanıb və bu təşkilat birbaşa USAİD tərəfindən maliyyələşir. Hətta təşkilatın Vikipediya səhifəsində və özünün sahfəsində onlar bu faktları gizlətmillər üstəlik öz kirli əmələri ilə fəxr edirlər.

Xatırlatmaq istərdik ki, Azərbaycan Prezidenti BBC- jurnalistinin Azərbaycanda Azad medianın sıxışdırılması haqqında sualına cavab olaraq, məhz Britaniyada faktiki olaraq ev dustaqlığında olan Assanjın nümünəsi gətirərək demişdir: "Bəs onda siz cənab Assanjın qarşı olanları necə qiymətləndirirsiz? Məgər bu sizdə azad mediaya olan münasibətin göstəricisi deyil?"

https://report.az/en/analytics/ilham-aliyev-s-bbc-interview-causes-astir-in-social-networks/

Təsəvvür edin ki, Culian Assanc - ABŞ-ın xarici siyasətinin kirli işlərini dünya içtimaiyyətinin diqqətinə Vikiliks vasitəsi ilə çatdıran bir şəxs, OCCPR haqqında bunları demişdi: "...Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi ( Organized Crime and Corruption Reporting Project) (OCCRP) vasitəsi ilə məlumatların yayılmasını birbaşa USAİD dəstəkləyir..." Bu həmin Assancdır ki, ABŞ-ın gerçək mahiyyətini açdığı üçün uzun illərdir ABŞ tərəfindən təhdidlərə məruz qalır.

### USAİD-in ofisində OCCRP ilə yayın qabağı iclas

Beləliklə biz, SİA olaraq USAİD-in Azrbaycana qarşı OCCRP tərəfndən həyata keçirdiyi dünənki növbəti hücumla bağlı əhəmiyyətli fakt əldə etmişik. Məlum olub ki, yayımdan bir neçə gün əvvəl, Samanta Pauer OCCRP üzvləri ilə görüş keçirib (!). Görüş zamanı müxtəlif ölkələrdəki vəziyyət müzakirə olunub. O cümlədən, yenə də Azərbaycanda "insan haqlarının vəziyyəti" məsələsi qeyd olunub.

İndi təsəvvür edin ki, görüşün protokoluna daxil edilmyən və amerikalıların "off the record" (protokoldan kənar R.R.) termini ilə əhatə olunan hansı məsələlər müzakirə olunub ki, dərhal o görüşdən sonra ölkəmizə qarşı növbəti cəfəngiyyat paylaşılsın. Bu addımla da Samanta Pauer onu göstərilən "böyük etimadı" növbəti dəfə doğruldub. Görüşün protokolu ilə burdan tanış ola biləriniz:

https://www.usaid.gov/news-information/press-releases/sep-23-2021-usaid-administrator-power-hosts-roundtable-anti-corruption-change-agents

### ABŞ-dan Azərbaycana qarşı aparılan genişmiqyaslı hücumun digər elementləri

Və USAİD-in bu hücumu ABŞ-ın Azərbaycana qarşı digər anti azərbaycan hərəkətləri ilə eyni vaxtda baş verir. Məsələn bu günlərdə məlum olub ki, ABŞ-ın hərbi təlimatçıları Ermənistanda əhaliyə yeni döyüş taktikalarını öyrədirlər.

Digər tərəfdən, keçən dəfə Menendez-Arslanyanın rəhbərlik etdiyi ABB-ın xarici əlaqələr komitəsində Azərbaycana qarşı 4 qərəzli qətnamə qəbul olunur.

Nəticədə belə bir vəziyyətdə digər maraqlı proseslər baş verir. Məsələn, İsrailin Azərbaycandakı gənc səfiri ABŞ səfiri ilə birlikdə Qubaya gedir və orada USAİD-in yeni layihəsinə start verir. Lakin layihəni ABŞ-ın maiyyələşdirdiyinə baxmayaraq və USAİD-in icra etdiyinə baxmayaraq, ABŞ səfiri susur və bəyanat üçün fürsəti ABŞ-ın, yeni Sorosun fitnəkarlığını tam dərk edə bilməyən İsrailin gənc səfirinə həvalə edir. Və o da iki ölkə arasında əməkdaşlığı regional kontekstə genişləndirərək, bizim ərazimizdən üçüncü və bizə qonşu ölkənin maraqlarına cavab vermir. Əlbəttə ki, bu bəyanat ABŞ-ın Azərbaycana qarşı hibrid müharibəsinin tərkib hissəsidir, və təəssüflər olsun ki, İsrailin gənc səfiri bu fitnəkarlığının qurbanı oldu. Daha dəqiq desək, Sorosun iyrənc siyasətinin fərqinə vara bilmədi.

### ABŞ səfirinin niyə susması haqqında isə biz yazmışdıq...

https://sia.az/az/news/politics/895195.html

Amma görünür təcrübəli səfir susqun şəkildə də Ağ evdən tapşırıqları məharətlə yerinə yetirir.

### Ağaye Soros

Və ABŞ səfirinin bu təxribatı baş tutdu, belə ki, İranda bu bəyanata kəskin reaksiyalar gəldi. Amma bu da məlumdur ki, Sorosun İranda da şəbəkəsi var. Güya ABŞ-la gərgin münasibətləri olan İran eyni zamanda Sorosla sıx əməkdaşlıq edir. Aşağıda bununa bağlı Avropa İttifaqının bir maraqlı sənədi ııə tanış ola bilərsiniz:

Və ABŞ səfirinin bu təxribatı baş tutdu. Belə ki, İranda bu bəyanata kəskin reaksiyalar gəldi. Amma o da məlumdur ki, Sorosun İranda da şəbəkəsi var. Güya ABŞ-la gərgin münasibətləri olan İran eyni zamanda Sorosla sıx əməkdaşlıq edir. Aşağıda bununa bağlı Avropa İttifaqının bir maraqlı sənədi ııə tanış ola bilərsini:

https://www.europarl.europa.eu/doceo/document/E-8-2018-004594_EN.html

Məlumatda deyilir:

"....Verilən suallara cavab olaraq, İran İslam Respublikasının Xarici İşlər Naziri Məhəmməd Zərif, təsdiq etdi ki, ayətullah rejimi tez-tez beynəlxalq fırıldaqçı Corc Sorosun rəhbərlik etdiyi Açıq Cəmiyyət İnsitutu ilə təmasda olub..."

Bax belə! ABŞ-ın bayrağını asfalt üzərində çəkib üstündən gəzən Tehran rəngli inqilabların mühəndisi və seksual azlıqların müdafiəçisi Sorosla əməkdaşlıq edir. Məgər faktdan da artıq fakt olurmu?

Beləliklə Soros, Arazın bu tərəfində ABŞın səfiri vasitəsilə İsrailin səfirini yanlış bəyanatlara təhrik edir, digər tərəfdən İran hakimiyyətiu daxilindəki şəbəkəsi vasitəsi ilə bu bəyanata görə Azərbaycanı hədəfə alır.

Ardı Səh. 11

# USAİD, Soros, Samanta Pauer triosu

## Qərəzli dairələrin Azərbaycana qarşı hibrid müharibəsi




Əvvəli Səh. 10

### ABŞ səfirinin biristiqamətli səfərlər xəritəsi

Burada diqqət çəkən digər bir maraqlı fakt da var. Ümumiyyətlə ABŞ səfirinin Azərbaycandakı səfərlərinin xəritəsinə nəzər salsaq görürük ki, səfər ən çox Şimal və Şimal Qərb rayonlarına səyahət edir, yəni əsasən Rusiya ilə sərhəd rayonlara. Orda əhali ilə və yerli icra başçıları ilə görüşlər keçirir, Rusiya ilə ticarət və digər əlaqələr haqqında məlumatlar toplayır. Məqsəd isə USAİD-in ”Kremlin zərərli təsirinə müqavimət” (COUNTERING MALIGN KREMLIN INFLUENCE ) adlı fəaliyytin dəstək verməkdir. Ətraflı: https://sia.az/az/news/politics/879831.html

Görünür ABŞ-ın səfirinin İranla sərhəd rayonlara bir o qədər maraq göstərməməyinin səbəbi isə Sorosun İranda olan şəbəkəsindən əminliyidir ki, onlar Azərbaycana qarşı fəaliyyətlərə dair Sorosdan aldığı tapşırıqları layiqincə yerinə yetirəcəklər. Rusiyada isə USAİD artıq yoxdur. Putin USAİD-i Rusiyadan məhz elə bu cür fəaliyyətlərə görə hələ 2012-ci lin sentyabrında qovub.

### Hibrid müharibəsində vətən xainlərindn istifadə - deməli Arif Məmmədov adlı birisi...

Yeri gəlmişkən, onu da xüsusi qeyd etmək lazımdr ki, Soros ölkəmizə qarşı hibrid müharibədə kökünü və soyunu unutmuş insanlardan məharətlə istifadə edir.

Sözdə özlərini radikal müxalifətçi olaraq zorla ictimai rəyə sırıyan siyasi gədə-güdələr USAİD-dən yemlənərək öz ölkələrinə və xalqın birmənalı liderinə qarşı istənilən cəfəngiyyatları uydurmağa hazırdılar. Və ən maraqlısı odur ki, bu ünsürlərin əksəriyyəti məhz ABŞ və Fransada məskunlaşıblar. Yaxşı, bircə sual yaranır, Azərbaycana nifrət edən və qərəz nümayiş etdirən ölkə axı sənə niyə sığınacaq versin? Deməli sən onun siyasətini yürüdürsən? Bu arada o xainlərdən biri haqqında maraqlı fakt ələ etmişik.

Deməli Arif Məmmədov adlı birisi Avropada səfir işləyərkən, əsas fəaliyyəti maşın alveri olubmuş. O bütün səfirliyini əməkdaşarına tapşırırmış ki, bazarda ucuz maşınlar tapıb ona məlumat versinlər, o da sonradan Bakıdakı maşın alverçilərinə həmin maşınlar satırmış. Əsil ”patriot” belə olurmuş...

### Blinkenin sorğuları

Əlbəttə ki, ölkəmizə və rəhbərimizə qarşı hücumlardan ötrü əsassız informasiyalar ölkə daxilindən ötürülür. B prosesdə başlıca rolu ABŞ səfirliyinin müdafiəsi altında olan USAİD oynayır. Burada Assancın Vikiliks vasitəsi ilə yaydğı məlumatlara istinad etmək istərdik. Aşağıdakı məktubların biri 2009-cu ilin dekabrında, digəri isə 2010-cu ilin fevral ayında ABŞ-ın Azərbycandakı səfirliyinə göndərilib.



https://wikileaks.org/plusd/cables/09STATE132385_a.html

https://wikileaks.org/plusd/cables/10STATE13575_a.html

Məktublarda səfirlərə tapşırılır ki, Azərbaycanın daxili və xarici siyasəti haqqında bütün mövcud şəbəkələrdən istifadə etməklə zəruri məlumatlar toplanınsın. Hər iki məktub o vaxtkı dövlət Katibi Hilari Klintonun (diqqət edin, yenə də demokratların-R.R.) imzası ilə göndərilib. Lakin by məktubları tərtib edn məhz indiki dövlət Katibi Entoni Blinken olub. Belə ki, Hillari Klinton 2009-2013 illərdə dövlət katibi olduğu dövrlərdə, Blinken Baydenin milli təhlükəsizlik məsələləri üzrə müşaviri olub. Blinkenin atası Donald Blinken isə Corc Sorosun ən yaxın dostudur. Görün indi özü dövlət katibi olan Blinken hansı sorğular göndərir və biz bunlardan qərəzdən başqa nə gözləyə bilərik?

### Sorosun ölkə daxilindəki dayaq nöqtələrinə zərbə endirməyin zamanıdır

Bəs Blinkenin şübhəsiz ki, indi də tələb etdiyi məlumatları ABŞ-ın səfirliyi və USAİD kimlərdən əldə edirlər? Əlbətdə ki, Sorosun hələ də ölkə daxilində mövcud olan şəbəkəsindən. Burada xüsusi rol elə Sorosun özünə məxsus olan və hələ də USAİD-ın çətiri altında fəaliyyət göstərən təşkilatlara ayrılır.

Məsələn biz Sorosa məxsus Şərq-Qərb İdarəetmə İnstitutu (bax: https://sia.az/az/news/politics/875418.html) haqqında dəfələrlə yazmışıq. Və bugünlərdə məlum olub ki, USAİD Sorosun ŞQİİ təşkilatına yenidən 15 milyon ABŞ dolları ayırıb, özü də ”ictimai fəalliğın dəstəklənməsi” layihəsinə.

Digər məlumat mənbəyi əlbəttə ki, USAİD-dən maliyyələşən yerli və siyasiləşmiş müxalifətyönlü QHT-lərdir. Onlar da aldıqları qrantların müqabilində istənilən cəfəngiyyat uydurmağa hazırdılar.

Şübhəsiz ki, başqa məlumat mənbəyi, bəzi ABŞ-yönümlü məmurlardır ki, bəlli və ya qeyri-bəlli münasibətlər naminə müəyyən məlumatları qeyri-rəsmi olsa da bölüşürlər.


LASTAMPA

POSTED ON 07 April 2016 LAST EDIT 08 July 2019 ora 16:07

Wikileaks accuses the United States and the Hungarian-born American billionaire George Soros of being behind the Panama Papers, and in particular behind the attack on Russian President Vladimir Putin. The tweeted by the organization of Julian Assange, according to which everything would have passed through the Occrp (Organized Crime and Corruption Project), financed by Usaid, the US agency for development.

ANALYSIS - Infoguerra with leaks (Massimo Russo)

"#PanamaPapers, the attack on Putin was carried out by the OCRP, which targets Russia and the former USSR and was founded by USAID and Soros," tweeted Wikileaks. The Occrp (Organized Crime and Corruption Project) is a non-profit, according to its website, and is supported, as well as by Usaid, by the Open Society Foundations, by journalistic organizations such as the International Consortium of Investigative Journalists (Icij), Scoop, and the Center

READ ALSO

Visco, Bankitalia: "The PNRR is an extraordinary challenge for the growth of Italy"

Wave of increases in energy prices, the food sector will also be affected: earthquake on household budgets

Bills, Cingolani: we hope that after the first quarter of 2022, gas prices will return to being reasonable

VIDEO OF THE DAY

RIVEDI IL VIDEO

Yuxarıdakı bütün təhlillər göstərir ki, Sorosun taxta otuzdurduğu Bayden hökumətinin yeganə məqsədi Azərbaycanın qələbə ruhunu sarsıtmaq, qələbənin nəticələrini sual altlına almaq, ölkə rəhbəri haqqında yalan yaymaqla, ölkədə narazılıq yaratmaq, və yeni ”rəngli inqilablara” start verməkdir. Bütün bu proseslər ABŞ-ın əsas ”vuran əli” hesab edilən USAİD vasitəsi ilə icra edilir. Nə qədər ki, USAİD Azərbaycandan qovulmayıb, biz bu kimi qərəz və sabotaj cəhdləri ilə üzləşəcəyik. Bunu dolayısı yolla təsdiq edən bir fakt: OCCRP dünən payaşdığı ”pandora kağızlarında” Putinin adı yoxdur. Niyə? Ona görə ki, o USAİDi çoxdan ölkədən qovub və təxribat məlumatları toplayan və ötürən yoxdur.

Artıq növbə müvafiq diplomatik qurumlarımızındır - bu kimi təşkilatlar Azərbaycandan rədd edilməlidirlər!

***Rövşən RƏSULOV***

---

## Pol Qavan: Ağdama çatanda qorxunc mənzərə ilə qarşılaşdım

Ağdama çatanda qorxunc mənzərə ilə qarşılaşdım. Tamamilə məhv edilmiş bir şəhərlə üz-üzə gəldim. Orda hər şey dağıdılmış, heç nə qalmamışdı. Bir zamanlar 30 min insanın yaşadığı şəhər indi darmadağın edilib.



Bu fikri “Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri”nə dair məruzənin müəllifi, parlamentari Pol Qavan deyib. “Mən məruzəmdə Ağdamın yerlə yeksan edildiyini qeyd etmişəm. Gördüklərimi olduğu kimi təsvir edərək yazmışam. Dağıdılmış bütün şəhər minalanmışdı. Orada nə baş verdiyini tam anlamaq üçün daha geniş müzakirələrə ehtiyacımız var.

İndi biz qarşılıqlı etimadın yaranması ətrafında düşünməliyik. Düşmənçilik davam etməməlidir. Biz gələcəyə baxmalıyıq”, - deyə Pol Qavan söyləyib.

Parlamentari həmçinin, birinci Qarabağ müharibəsində 3890 azərbaycanlının itkin düşdüyünü də qeyd edib. Bildirib ki, tərəflər arasında əməkdaşlığa başlamaq, qarşılıqlı etimad istiqamətində tərəqqiyə nail olmaq lazımdır.

## HƏRBİ EKSPERT: ”Həyata keçirilən addımlar ordunun inkişafına yönəlib”

“Ümumiyyətlə Azərbaycan Ordusunun keçirdiyi bütün təlimlərin, digər ölkələrlə birlikdə keçirdiyi təlimlərin məqsədi əlbəttə ki, ordunun döyüş imkanlarının gücləndirilməsidir”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Ramil Məmmədli deyib. Onun sözlərinə görə, bu kontekstdə də atılan addımlar çox əhəmiyyətlidir: “Naxçıvanda keçiriləcək təlimlərin mahiyyətində Azərbaycan Ordusunun maddi-texniki təminatı, silah-sursat təminatında müəyyən inteqrasiyanın həyata keçirilməsi kimi məsələlər durur. Ümumilikdə Azərbaycan Ordusu bildiyimiz kimi bu gün dünyanın müasir orduları sırasındadır. Bu baxımdan da Türkiyə kimi NATO dövləti ilə əməkdaşlıq etməsi ölkənin təhlükəsizliyi və regionda sülh və əmin-amanlığı bərqərar olunması baxımından olduqca əhəmiyyətlidir. Hesab edirəm ki, döyüş hazırlığının yüksəldilməsi üçün bu istiqamətdə həyata keçirilən addımlar yalnız və yalnız ordunun inkişafına yönəlib”.

***Arzu Qurbanzadə***

# “Dəmir yumruq” əməliyyatı Azərbaycanın Zəfəri ilə başa çatdı



## Prezident İlham Əliyev:

## "Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq"

**Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı zamanı rəşadətli ordumuz düşmənə ilk gündən başlayaraq ağır zərbələr vuraraq, öz torpaqlarını erməni təcavüzündən azad etdi.**

Vətən müharibəsinə qədər Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışırdı. Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib ki, bu qətnamələrə əməl olunmayıb. Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilib, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanıb. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub. Bu və ya digər sənədlərə məhəl qoymayan Ermənistan işğalçılıq siyasətindən əl çəkmir və Azərbaycanın sərhədlərini atəşə tutur, dinc əhalini, mülki obyektləri və yaşayış tikintilərini hədəfə alırdı.

Ötən ilin 12 iyul və 27 avqust tarixlərində Ermənistan hərbi hissələrinin Azərbaycan sərhədlərində törətdiyi təxribatlar Ermənistanın çirkin niyyət və planlarını əks etdirirdi. Ermənistanın bu və ya digər təxribatları Azərbaycan Ordusunu cavab tədbirlərinə vadar etdi və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Azərbaycan ordusunun gücü, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi nəticəsində təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında artıq uduzduğunu ilk günlərdən dərk etdi. ”Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi - Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu ”Nasionalnaya oborona” jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya verdiyi müsahibəsində bildirib.

### ”BİZ ÇOX GÜCLÜ HƏRBİ TƏRKİB HİSSƏ YARATDIQ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BUNU GÖSTƏRDİ”

”Gəlin, həmin günə - 2020-ci il sentyabrın 27-nə qayıdaq. Həmin gün necə başlandı? Sizə necə məruzə etdilər ki, Ermənistan döyüş əməliyyatlarına başlayıb, ümumiyyətlə, həmin gün hadisələr necə inkişaf edirdi” sualını cavablandıran dövlət başçısı bildirib ki, müdafiə naziri mənə məlumat verdi ki, təmas xəttindəki mövqelərimiz və bəzi yaşayış məntəqələrimiz Ermənistan tərəfindən artilleriya atəşinə məruz qalıb: ”Adekvat cavab vermək qərara alındı və beləliklə, biz müharibəyə qoşulduq. Məlum oldu ki, bu, labüd idi”. Azərbaycan ordusu ilk gündən düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu və 44 gün ərzində yalnız qələbə xəbərləri aldıq. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən müharibəsində öz gücünü nümayiş etdirdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi hər şeyi demiş oldu. Dövlət başçısının dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində Azərbaycanın iradəsini ortaya qoymuş oldu.Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyən ermənilər təcavüzkar siyasətlərini davam etdirərək, dinc əhalini hədəfə aldılar və yaşayış məntəqələrini ballistik raketlərdən atəşə tutdular. Dövlət başçısı tərəfindən prioritet elan edilən ordu quruculuğu sayəsində Azərbaycan Ordusu ən müasir silahlarla silahlanmış, dünyanın ən güclü orduları sırasında özünə layiqli yer tutmuşdu. Peşəkarlığı yüksək olan Azərbaycan Ordusunun ən yüksək texnologiyalara məxsus hərbi texnikalarla silahlanması və ölkəmizin də inkişaf etmiş hərbi-sənaye kompleksinə malik olması qələbəmizi şərtləndirən amillərdəndir. Azərbaycan Ordusu həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Son illərdə ordu quruculuğunda əhəmiyyətli islahatlar həyata keçirilib, bu məsələ ilə bağlı dövlət başçısı



tərəfindən ardıcıl olaraq addımlar atılıb ki, bunun da müsbət nəticələri özünü 44 günlük Vətən müharibəsində büruzə verdi. ”Silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılması üzrə gündəlik böyük iş aparılırdı”, - deyən Cənab Prezident qeyd edib ki, döyüş qabiliyyətli silahlı qüvvələri olmayan ölkə necə texniki vasitələrə malik olsa belə, onun döyüşdə, xüsusən müharibədə, özü də belə əlverişsiz coğrafi şəraitdə qalib gəlməsi mümkün olmazdı: ”Əslində, bu tədbirlər kompleksi onunla nəticələndi ki, biz çox güclü hərbi tərkib hissə yaratdıq və İkinci Qarabağ müharibəsi bunu göstərdi”.

### ”ERMƏNİSTANI İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİ KÖNÜLLÜ ŞƏKİLDƏ TƏRK ETMƏYƏ MƏCBUR ETMƏK ÜÇÜN TƏSİR VASİTƏLƏRİNDƏN İSTİFADƏ ETMƏYƏ ÇALIŞIRDIQ”

Ermənistan 2016-cı il aprel döyüşlərində Azərbaycanın gücünü görmüş oldu. Vətən müharibəsi başlayanda artıq Ermənistan güclü ordu ilə üz-üzə qaldığını anlayırdı. ”Biz, həmçinin 2016-cı ilin aprelində döyüş əməliyyatlarının gedişində öz imkanlarımızı çox məhdud şəkildə nümayiş etdirdik”, - deyən dövlət başçısı o vaxt işğal altındakı ərazilərin bir hissəsinin azad edildiyini və bizim erməni tərəfin işğala son qoyması barədə mühüm qərar qəbul etməsinə imkan verdiyimizi diqqətə çəkib: ”Təəssüf ki, o vaxt biz dayananda erməni tərəf bizim bu hərəkətimizi düzgün başa düşmədi və bu, onlara baha başa gəldi. Biz, həmçinin 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikası ilə Ermənistanın sərhədində, necə deyərlər, qan tökülmədən əməliyyat aparmaq imkanlarımızı nümayiş etdirdik. Buna görə biz öz potensialımızı, nəyə qadir olduğumuzu bilirdik və təbii ki, ermənilərdən fərqli olaraq, düşmənin imkanlarını sayıq qiymətləndirir və Ermənistanı işğal edilmiş əraziləri könüllü şəkildə tərk etməyə məcbur etmək üçün təsir vasitələrindən istifadə etməyə çalışırdıq. Mənim Ermənistana qarşı sanksiyalar tətbiq edilməsi barədə beynəlxalq qurumlara bütün çağırışlarımın məqsədi bu olub”.

### ”HƏRBİ ƏMƏLİYYATLAR APARILAN DÖVRDƏ BİZ BİR DƏFƏ DƏ PROVOKASİYALARA UYMADIQ”

Bu müharibədə Azərbaycan mülki insanlarla müharibə aparmadı və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyildi. Amma Ermənistan tərəfindən mülkü əhaliyə dəfələrlə atəş açıldı. Bərdə, Gəncə, Tərtər kimi şəhərlərimiz ziyan çəkdi. Mənfur düşmən tərəfindən mülki şəxslər qətlə yetirildi və yaralandı. ”Hərbi əməliyyatlar aparılan dövrdə biz bir dəfə də, provokasiyalara uymadıq”, - deyən Prezident bildirib: ”Hətta ermənilər şəhərlərimizi bombalayanda, uşaqlarımızı və qadınlarımızı öldürəndə də biz Ermənistana eyni şəkildə cavab vermədik, biz onların şəhərlərini bombalamadıq. Hərçənd, bizi coşduran emosiyaları başa düşmək olardı. Biz hərbi cinayətlər törətməmişik. Hərbi əməliyyatın elə ilk günündə mən hərbi qulluqçulara çox sərt göstərişlər vermişdim ki, hərbi cinayətlər törətməyi özünə rəva görənlər ciddi cəzalandırılacaqlar”.İkinci Qarabağ müharibəsinin gedişində Ermənistan Azərbaycanın şəhərlərinə dəfələrlə zərbələr endirdi. ”Müharibə dövründə kimin kim olduğunu, kimin vicdanlı döyüş apardığını və kimin yatmış şəhərlərə alçaqcasına hücum etdiyini hamı gördü”, - deyən Azərbaycan Prezidenti qeyd edib ki, gecə vaxtı Gəncənin yaşayış məhəlləsinə, yatan insanlara və uşaqlara operativ-taktiki raket zərbələri endiriləndən sonra Ermənistan rəhbərliyi bəyan etdi ki, onların bu məsələyə heç bir aidiyyəti yoxdur: ”Bilirsiniz, bu, ifrat həyasızlıqdır. Bəs kim edib? Biz özümüz vurmuşuq? Onlar illər boyu deyirdilər ki, azərbaycanlılar erməniləri ittiham etmək üçün Xocalıda soyqırımını özləri təşkil ediblər. Yəqin ki, bu, dünyada analoqu olmayan həyasızlıqdır. Hərçənd, bu tipli raketlər barədə az-çox anlayışı olan bütün insanlara məlumdur ki, tapşırıq verilir, hədəf seçilir və raket düz həmin hədəfə doğru gedir. Yəni, hədəf məhz Gəncə şəhərinin əsas prospektində mülki əhalini məhv etmək idi. Onların siyasətinin və deyərdim ki, mənliyinin göstəricisi budur”.




Dövlət başçısı Tərtər şəhərinin cəbhə xəttinin bilavasitə yaxınlığında yerləşdiyindən daha çox zərər çəkdiyini ifadə edib: ”Bu kiçik şəhərə 16 mindən çox mərmi atılıb. Beləliklə, onlar döyüş meydanında məğlubiyyətin acığını çıxmağa və ya bizdən qisas almağa çalışırdılar. Bu, birincisi. İkincisi, onlar düşünürdülər ki, bizi dayandıracaqlar. Onlar fikirləşirdilər ki, zərər çəkmiş insanlar öz ölkəsinin hakimiyyətindən hərbi əməliyyatların dayandırılmasını tələb edəcəklər, onların niyyəti belə idi. Lakin onlar yanılırdı. Onlar ordunun döyüş qabiliyyəti və Azərbaycan xalqının mənəvi ruhu baxımından bizi lazımınca qiymətləndirmirdilər”.Bacarıqlı, təcrübəli komandanlıq altında idarə edilən döyüşlərdə meydanından vahimə içində qaçan düşmənin yüzlərlə müxtəlif döyüş texnikası, silah-sursatı məhv edildi və qənimət kimi ələ keçirildi. Canlı qüvvə və döyüş texnikası sarıdan böyük itkilərə məruz qalan Ermənistan ordusu darmadağın edildi və ”Dəmir yumruq” əməliyyatı Azərbaycanın Zəfəri, Qələbəsi ilə başa çatdı.

Dövlət başçısı müharibənin gedişində olan bütün reallıqlara nəzər salaraq 44 günlük tarixi müharibədə baş verənləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmış oldu. Düşmən tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi ilə reallaşdı.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan öz oğullarının qəhrəmanlıqlarını yüksək qiymətləndirir və heç zaman unutmayacaq!

## Qəbələ rayonunda şəhid Xeyirbəy Səfərçinovun doğum günü qeyd edilib






Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan şəhidlərimizdən biri - Yeni Dizaxlı kənd sakini Səfərçinov Xeyirbəy Cəlil oğlunun doğum günü qeyd edilib. Rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, Təhsil şöbəsinin əməkdaşları, şəhidin təhsil aldığı məktəbin kollektivi, ictimaiyyət nümayəndələri və ailə üzvləri Xeyirbəy Səfərçinovun məzarını ziyarət etmiş, üzərinə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad etmiş, ruhuna dualar oxunmuşdur. Səfərçinov Xeyirbəy döyüşlərdəki igidliyinə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

***Rəfiqə***

## İsmayıllıda şəhid ailələri ziyarət olunub

İsmayıllı rayonunda 44 günlük Vətən müharibəsində ölkəmizin müdafiəsi uğrunda canlarından keçən XTQ giziri Musayev Ramil Aydın oğlunun və Qubaxəlilli kəndindən olan şəhid gizir Səlimzadə Kənan Məmiş oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələri ziyarət edilib. Anım mərasimində iştirak edən İsmayıllı rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov qeyd edib ki, bu gün ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində şəhid ailələrinin sosial-məişət problemləri həll olunur.







Eyni zamanda, İsmayıllı rayonu Qalınçaq kəndində Vətən müharibəsi şəhidi Tural Rəcəbəliyevin anım mərasimi keçirilib. Mərasimdə çıxış edən şəhidin yaxınları öz xatirələrini bölüşüblər, diqqət və dəstəyə görə, ölkə rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Anım mərasimində YAP İsmayıllı rayon təşkilatının sədr əvəzi Sevil Əhmədova və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***ZÜMRÜD BAYRAMOVA***

## YAP Sabunçu rayon təşkilatının nümayəndələri şəhidin məzarını ziyarət ediblər

**Dünən Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının sədri Misirxan Vəliyev, millət vəkili Əliabbas Salahzadə və rayon təşkilatının əməkdaşları şəhid Dəmirçiyev Tural Rəfail oğlunun məzarını ziyarət etmişlər. Daha sonra şəhidin ildönümü ilə əlaqədar keçirilən yas mərasimində iştirak etmişlər. Ailə üzvlərinə səbr arzulayan YAP Sabunçu rayon təşkilatının sədri Misirxan Vəliyev xalqımızın onun kimi igidlərlə qürur duyduğunu vurğulayaraq ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımıza Allahdan rəhmət diləmişdir.**






Qeyd edək ki, Dəmirçiyev Tural Rəfail oğlu 01.10.1992-ci il tarixdə Bakı şəhərində anadan olmuşdur. Sabunçu rayonu Ramana qəsəbəsində yerləşən R.Zorge adına 90 saylı tam orta məktəbi bitirmişdir. 2010-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olmuşdur. Universiteti bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmışdır. Vətən müharibəsi başlayan zaman könüllü olaraq ordu sıralarına yazılmış, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. T.Dəmirçiyev Vətən müharibəsi zamanı 06.10.2020-ci il tarixdə Füzuli istiqamətində düşmən hücumunun qarşısını dəf edərkən qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur. Azərbaycan dövləti öz oğullarının qəhrəmanlıqlarını yüksək qiymətləndirir və heç zaman unutmayacaq.

***Allah rəhmət eləsin!***
***Rəfiqə***

## Zaqatalada şəhidlərimizin xatirəsi anılıb

YAP Zaqatala rayon təşkilatının fəalları, Zaqatala rayon icra hakimiyyətinin, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon sakini, şəhid Məmmədov Elvin Mahmud oğlunun əziz xatirəsinə həsr olunmuş bulaq abidəsinin açılışında iştirak edib, onların əziz xatirəsini böyük ehtiramla yad ediblər. Eyni zamanda, Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Əliabad qəsəbə sakini İrapov İsmayıl Nəsrulla oğlu və rayonun Aşağı Çardaqlar kənd sakini Abakarov Nail Müzəffər oğlunun ildönümü ilə əlaqədar məzarlarını ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər.








Daha sonra Şəhid ailələrini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidlərimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnun olduqlarını ifadə ediblər.

***ZÜMRÜD BAYRAMOVA***

TƏRS BAXIŞ + ÖZƏL

# Yaxud, nədən bu qədər xoflanırsınız?

# “Sionizm” ittihamından doğan DEBİLİZM!

*Ölkələrinin şimal-qərbində keçirilən hərbi təlimləri ilə bağlı iranlı deputatların və digər rəsmi şəxslərin bəyanatlarını (əslində, hay-həşirlərini) incələyirəm. Daha hansı riyakarlıqlar yoxdur səslənən fikirlərdə..?*



* ”Regionda istənilən geosiyasi dəyişikliklər, qonşu ölkələrin sərhədlərinin dəyişdirilməsi İran üçün qırmızı xətt hesab ediləcək və bizim yadların fəaliyyətinə verəcəyimiz cavab gecikməyəcək”.

* ”Biz hansısa ölkənin ərazisinin sionist rejim üçün göstərdiyi xidmətinə dözməyəcəyik. Araz boyunca keçirilən ”Xeybərin fatehləri” təlimləri gücün və sühün siqnalıdır, eləcə də sionist rejiminə xəbərdarlıqdır”.

* ”Bizim qonşu ölkələrlə, o cümlədən qardaş Azərbaycanla münasibətlərimiz keçmişə söykənir və möhkəmdir. Düşmənlərin təxribatları bu birliyi və qardaşlığı dağıtmır. İran dəfələrlə qonşu ölkələrə, eləcə də Azərbaycana tərəf qardaşlıq və mehriban qonşuluğunu sübuta yetirib.

Necə deyərlər, xub, pəkələ və mübərrəqə! Amma bütün bu fikirlərin hər birinin arxasında o qədər çox riyakarlıqlar, siyasi klounluqlar və uğursuz tamaşalar var ki, onları saymaqla qurtarmaz.

Bu baxımdan, çox hörmətsiz iranlı deputatlara bir neçə kəlmə ilə cavab ərz etmək istərdim. Axı ay ”sionizm fatehləri”, çox maraqlıdır ki, Araz çayının kənarında hərbi təlimlər keçirməklə yersiz barmaq silkələyirsiniz, fəqət kimə, niyə və nə üçün? Nədən bu qədər xoflanırsınız? Müsəlman ölkə olan Azərbaycanın güclənməsi üzündənmi? Sözün əsl mənasında səlibçi, işğalçı, qonşu torpaqlarına göz dikən daşnak-radikal xristian xislətlilərini məhv etməsinə görəmi? Əgər belədirsə, onda ya siz müsəlmançılığı doğru-dürüst qəbul edə bilmirsiniz, ya da müsəlmançılıq pərdəsi altında aşkar səlibçilik siyasəti aparırsınız!

Çox maraqlıdır, əgər siz iddia etdiyiniz kimi ”sionizmlə mübarizə” aparırsınıza, nə üçün ”mübarizənizi” Azərbaycanla sərhədlərdə deyil, misal üçün, Livanın cənubunda, yaxud Suriyanın Holan təpələrində aparmırsınız? Axı orada düşmən elan etdiyiniz İsrail hərbi hava qüvvələri gecə-gündüz və istədiyi vaxtlarda bombardmanlar həyata keçirir. Siz isə susursunuz, hətta 40 ildən çoxdur ki, oralarda baş verənlərlə bağlı boş-boş bəyanatlar verib sonra da qayıdıb-oturursunuz öz yerlərinizdə (?!)

Maraqlıdır, Tehrandan ”sionistlərə” barmaq silkələyirsiniz, amma ordunuzu ”qardaş Azərbaycan” adlandırdığınız ölkənin sərhədlərinə doğru çəkirsiniz (?!).

Məntiqsizlik isə şkalanı aşır! Çünki ortada İran siyasi nomenklaturasının anlaşılmaz dissonanslığı, yeni fikirlərin üst-üstə düşməməsi faktoru mövcuddur.

Daha dəqiq izah edək: bir tərəfdən ”pis sionistlər” hədəfə alınır, o biri tərəfdən ordu ”qardaş Azərbaycan” adlandırılan qonşu ölkənin sərhədlərinə yürüdülən ordu hərbi təlimlər keçirir, digər tərəfdən isə ”Zəngəzur dəhlizinin yolverilməzliyi” haray-həşiri qaldırılır. İndi bunu necə anlayaq, ümumiyyətlə, siz nə danışdığınızın, düşündüyünüzün fərqinə vara bilirsinizmi?

Əslində, ötən gün Azərbaycan xalqının Lideri və Sərkərdəsi, Ali Baş Komandan İlham Əliyev düz Araz çayının kənarında Tehran mənsublarının hay-şivənçilərinə sərrast cavabını səsləndirdi:

* ”Azərbaycan müstəqil siyasət yürüdür və bu əsasda qonşularla münasibət qurur və heç kim də bizim daxili işlərimizə qarışmasın”.

* ”Hansı ölkə ilə və hansı səviyyədə əlaqələr qururuq - bu, öz işimizdir. Ermənistanla yaxın dost olan ölkələrə qarşı iddialar irəli sürmürük. Bu bizi incidə bilər, xüsusən də qonşu ölkə olanda, amma biz bunu ifadə etmirik ”

* ”Biz suveren hüquqlarımıza hörmət etməyi və daxili işlərimizə qarışmamağı tələb edirik. Bizə qarşı irəli sürülən ittihamlar rəsmən sübut olunmalıdır. Qoy gəlib burda bir əcnəbi tapsınlar”



* ”Bizə qarşı əsassız ittihamları qəbul etməyəcəyik. Mən bunu burada - Cəbrayılda, Araz çayının sahilində, Azərbaycan xalqına və bütün dünyaya deyirəm - bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq”.

* ”Bəzi əyalət İran mollasının böhtanlarına əhəmiyyət vermədik, amma sonra dövlət rəsmiləri bizə qarşı əsassız ittihamlar irəli sürərək eyni şeyi təkrar etməyə başladılar. Guya Azərbaycan İsraili bu bölgələrə gətirib. Qoy gözlərini açsınlar, baxsınlar. İsraili burada harada gördülər?!”

* ”Azərbaycan xarici əlaqələrini və daxili işlərini istədiyi kimi planlaşdırmağa davam edəcək. Qoy heç kim burnunu bizim işlərə soxmasın”

O, eyni zamanda İrana işarə edərək bəzi ölkələrin bölgədəki proseslərin kənarında qaldığını söyləyib:

*Bu onların işidir, amma bütün qonşu ölkələrə əməkdaşlıq üçün bir platforma təqdim etdik”.

Ölkə rəhbərimiz onu da bildirib ki, Azərbaycan 130 km sərhədin erməni işğalından azad olduğunu və ”burada hansı proseslərin baş verdiyini” yoxlayır. Bu, həm də İranın Qarabağ separatçıları ilə qeyri -qanuni ticarət, narkotik və silah qaçaqmalçılığına işarə idi. Və ən əsası, Prezident İranı coğrafiyadan xəbərsiz olduğuna görə sərt şəkildə qınayıb:

”Qoy sərhədin harada olduğunu görsünlər. İşğal etdiyimiz yerləri Azərbaycanın ərazisi hesab edirik və düzgün iş görürük. Bu gün Ermənistan ən yüksək səviyyədə açıq bəyan edir ki, Sovet İttifaqı dövrünün xəritələrində göstərildiyi kimi, Azərbaycanın haqlı olaraq Gorus-Qafan yolunun müəyyən bir hissəsində yerləşir. Biz öz ərazimizdəyik. İndi bunu Ermənistan deyir. Digərləri deyirlər ki, kiminsə sərhədini pozmuşuq, bu gülüncdür”.

Yəqin ki, bundan sonra Azərbaycanda ”sionist” axtarışına çıxan və bizə sözdə ”qardaş” deyib, əməldə isə hər an kürəyimizdən xəncər saplamağa hazır olan qonşu ölkənin başlarından böyük danışan başbilənləri əbalarını başlarına çəkib-qınlarında oturacaqlar. Üstəlik, birdəfəlik!

Qoy bundan sonra gedib xam xəyalları müqabilində və zamanında ”qohum xalq” adlandırdıqları ermənilərlə ”Fars körfəzi-Qara dəniz”, ”dağlar üzərində dəmir yolları çəkmək” kimi sərsəm xülyalarının ”gerçəkləşdirilməsi” istiqamətindəki utopiyalarına, hallüsinasiyalarına qapılsınlar. Zatən, boş-boş bəyanatlar verməyə alışqandırlar...

**Rövşən RƏSULOV**

***P.S. Həqiqətə qalanda isə dövlətimizə dil uzadan iranlı mollakratların ”sionizm” ittihamları ilə bağlı hay-küylərinə yekun fikrim budur: DEBİLİZM!***

# İspan professor: ”Hansı ölkə Qarabağa sərmayə qoysa, bundan faydalanacaq”

**Pan-Avropa Beynəlxalq İttifaqının üzvü, İspaniyanın Kral I Xuan Karlos Universitetinin hüquq professoru Karlos Uriarte Sançes ”Caliber” analitik mərkəzinə müsahibəsində müharibədən sonra Qafqazdakı mövcud vəziyyət, iqtisadi əlaqələr və nəqliyyat dəhlizlərinin perspektivləri mövzusunda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb.*



***- İspaniya ilə Azərbaycan arasındakı münasibətlərin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?***

- Ölkələrimiz arasında münasibətlər əladır. 11 fevral 1992-ci ildə başlayan tam hüquqlu diplomatik əlaqələrimiz var. İkitərəfli əlaqələr yaxşıdır, baxmayaraq ki, məzmun məhduddur, buna görə də onları gücləndirmək niyyəti var.

Azərbaycan hakimiyyəti İspaniyanın əhəmiyyətli bir Avropa ölkəsi olduğunu bilir və 2005-ci ildə Madriddə Azərbaycan səfirliyinin açılmasına töhfə verən ikitərəfli əlaqələrin inkişafına maraq göstərdi. İspaniya Azərbaycanın ərazi bütövlüyünü və BMT-nin bu məsələ ilə bağlı qətnamələrini dəstəkləyir.

***- Azərbaycanın iştirak etdiyi nəqliyyat, logistika və enerji layihələrini necə qiymətləndirirsiniz?***

- Azərbaycan geosiyasi mövqeyi cəhətdən əhəmiyyətli bir bölgədə yerləşir. Azərbaycan ərazisi Avrasiya regionunda Avropa və Asiya kimi mühüm iqtisadi bölgələr arasında nəqliyyat marşrutu olaraq Rusiya və İrana alternativ ola biləcək yeganə ərazi ola bilər.

Azərbaycan bu amilin əhəmiyyətini və coğrafi mövqeyinin xüsusiyyətlərini mükəmməl başa düşür. Bu səbəbdən Bakı həm ölkə daxilində, həm də bütövlükdə regionda nəqliyyat infrastrukturunu fəal şəkildə inkişaf etdirməyə çalışır. Məlumdur ki, müstəqillik illərində Azərbaycan neft və qazın dünya bazarlarına ixracı və tranziti üçün bir sıra nəqliyyat dəhlizlərinin yaradılmasına diqqət yetirirdi.



Azərbaycanın həyata keçirdiyi və iştirak etdiyi Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP boru kəmərləri kimi vacib layihələri qeyd edə bilərəm. Avropa dəmir yolunu Cənubi Qafqaz və Orta Asiya ərazisindən Uzaq Şərq dövlətləri ilə birləşdirmək üçün nəzərdə tutulmuş Bakı-Tbilisi-Qars dəmir yolunu da qeyd etməmək mümkün deyil.

Yuxarıda göstərilən bütün nümunələrdən göründüyü kimi, Azərbaycan ən uğurlu enerji və logistika layihələrində iştirak edir.





***- Zəngəzur dəhlizi haqqında nə düşünürsünüz? Cə7nubi Qafqaz regionunda bu dəhlizin rolu nədir?***

- Zəngəzur Azərbaycanın tərkibində idi, amma 1920-ci illərdə Ermənistana verildi. Sonralar iki ölkə arasındakı dəmir yolunun bəzi hissələri dağıldı və Azərbaycanın bir hissəsi olan Naxçıvanla əlaqəsi kəsildi.

Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsinin Naxçıvanla əlaqəsini bərpa etmək üçün vacibdir. Bu, xüsusən Mərkəzi Asiya ölkələrinin Azərbaycan üzərindən həyata keçirəcəyi ticarətlə bağlı Avropa ilə qarşılıqlı əlaqəni gücləndirəcək. Əminəm ki, bu, Mərkəzi Asiya ölkələrinin inkişafında mühüm rol oynayacaq.

Üçlü bəyanata görə, Qarabağ məsələsi ilə əlaqədar bağlanan bütün nəqliyyat xətləri yenidən açılacaq. Süveyş kanalı qəzası nəticəsində Asiyadan gələn malların gecikməsi və qiymətində artım oldu. Əslində, bu qəza bizə yeni bir alternativ yola ehtiyac olduğunu göstərdi və Zəngəzur dəhlizi də bu alternativ yola çevrilə bilər. Süveyş kanalına da alternativ ola bilər. Başqa sözlə, Zəngəzur Dəhlizi bölgənin sürətli iqtisadi artımına töhfə verəcək.

***- Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra onların bərpası ilə fəal məşğul olunur. Bunun üçün Bakı xarici investisiyalar cəlb edir. İspaniya Azərbaycanın azad edilmiş ərazilərinə sərmayə qoymaqda maraqlıdırmı?***

- Bu İspaniya üçün maraqlı olmalıdır, çünki bu proses Madrid ilə Bakı arasında əlaqələrin güclənməsinə təkan verəcək, onları daha da yüksək səviyyəyə qaldıracaq. Bu da İspaniyanı Orta Asiya ölkələrinə yaxınlaşdıra bilər.

Azərbaycan isə beynəlxalq siyasətdə Avropa ölkələri ilə daha sərfəli mövqe tuta bilər. Hazırda əsas investorlar Türkiyə, Rusiya və İsraildir. İspaniyanın bu ölkələr arasında alacağı pay çox vacibdir. İspaniya üçün Azərbaycan Amerikanın kəşfi kimi bir şeyə çevrilə bilər. Çünki Qafqazın bu bölgəsi uzun sürən müharibələr və qeyri-sabitlik səbəbindən viran qalıb və yenidən qurulmalıdır. Hansı ölkə bura sərmayə qoyarsa, uzun müddətdə bundan faydalanacaq.

***- İspaniyada investorları hansı sahələr maraqlandıra bilər?***

- İnşaat, enerji sahələrinə sərmayə qoyula bilər. İspaniya xarici enerji mənbələrindən və ya təbii enerji qaynaqlarından asılı olan bir ölkədir. Bundan əlavə, Avropa təbii qaz baxımından Rusiyadan asılıdır. İspaniya azad edilmiş ərazilərə sərmayə qoymaqla Rusiya qazına alternativ tapa bilər və bununla da Rusiyanın Avropaya təzyiqini azalda bilər.

Dövlət sektoru ilə yanaşı, özəl ispan şirkətləri də Azərbaycanın dağıdılmış bölgələrinin bərpasına sərmayə qoya bilərlər. Bundan əlavə, Azərbaycan infrastrukturun bərpası və tikintisində maraqlıdır. Qarabağda yeni yollara və yeni hava limanlarına ehtiyac var. Və bunun üçün yeni investorlar lazımdır.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
6 oktyabr
2021-ci il

# Yurgen Klopp "Barselona"ya "YOX" dedi!



"Liverpul"un baş məşqçisi Yurgen Klopp "Barselona"nı çalışdırmaqdan imtina edib. Qol.az sport.es-ə istinadən xəbər verir ki, Kataloniya təmsilçisi alman mütəxəssislə əlaqə saxlayıb və ondan Ronald Kumanı əvəzləməyi istəyib-istəmədiyi barədə soruşub. "Barselona" Kloppdan mənfi cavab alıb. Çalışdırıcı "Liverpul"la müqaviləsi başa çatdıqdan sonra istirahət etməyi planlaşdırdığını bildirib. Qeyd edək ki, Klopp 2015-ci ildən "Liverpul"u çalışdırır.



# Ronaldo həyat yoldaşı ölən dostuna dəstək oldu

"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo həyat yoldaşı ötən həftə vəfat edən dostu futbolçu Joze Semeduya dəstək olaraq paylaşım edib. Qol.az xəbər verir ki, o, bununla bağlı özünün "İnstaqram" səhifəsində yazıb: "Hər şeyin, o cümlədən futbolun arxa plana keçdiyi vaxtlar olur. Keçən həftə gözəl insan, həyatın mənə bəxş etdiyi ən yaxın dostlarımdan birinin həyat yoldaşı, əziz Sorayamız gözlənilmədən dünyasını dəyişdi.

Qardaşım Jose Semedu və bütün ailəsinə heç nə təsəlli verə bilməz. Amma bu gün, həmişə olduğu kimi, çox çətin dövrü birlikdə keçiririk. Rahat ol, dostum. Səni heç vaxt unutmayacağıq".

# DİQQƏT:

## Koronavirusa qarşı yeni növ dərman hazırlanır




Avropa Dərman Agentliyi yeni növ koronavirus (Covid-19) xəstəliyinin müalicəsi üçün hazırlanmış "Regkirona" dərmanının Avropa Birliyində istifadəsi üçün tətbiqin qiymətləndirilməsinə başlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, dərmanın Cənubi Koreyada yerləşən Celltrion şirkətinə məxsus "Celltrion Healthcare Hungary Kft" tərəfindən edildiyi bildirilib. Monoklonal antikor olaraq bilinən dərmanın, əlavə oksigen müalicəsinə ehtiyacı olmayan, lakin vəziyyəti pisləşmə riski olan böyüklər, Covid-19 xəstələri üçün hazırlandığı bildirilib.

*Ruqəyya Orucova*

# Limon suyuna sarımsaq qatıb içsəniz nə olar, FAYDALARI NƏLƏRDİR?



**Sağlamlıq mənbəyi olan sarımsaq və limon bir araya gəldikdə damar iltihabından, immunitet sisteminə qədər bir çox xəstəliyə təsir edir. Bəs limon və sarımsağın faydaları nədən ibarətdir?**

**1.** Xolesterolu və lipidləri azaldır.

**2.** Sarımsaq və limon suyu orqanizmdəki zərərli yağları yandırır və bunun nəticəsində kilo verməyə səbəb olur.

**3.** Sarımsaq bazal maddələr mübadiləsini sürətləndirərək yağları yandırdığı üçün iştahı artırır, bədəndəki şəkər nisbətini tarazlayır və mədəaltı vəzini yeniləyir.

**4.** Böyrək və safra daşlarını əridir, idrar problemini həll edir.

**5.** Bədəndəki şişkinliyi aradan qaldırır və toxumalarda ödəm əmələ gəlməsinin qarşısını alır.

**6.** Mədə və on iki barmaq bağırsağının müalicəsinə kömək edir.

*Abutel İsmayıllı*

# Həyat yoldaşı ilə romantik poz verdi



Məşhur müğənni Ziynet Sali və həyat yoldaşı Erkan Erzurumlu, sıx bir konsert marafonundan sonra Kiprdə istirahət edirlər. SİA xarici mətbuata istinadən xəbər verir ki, doğma yurdu "Girne Alqadi Turtle Beach"dən çimərlik şəkillərini paylaşan Sali, "Yay bitdi deməyincə bitmir" qeydini atıb. Müğənni həyat yoldaşı ilə poza verməyi də laqeyd qoymayıb.

*Ayşən Vəli*

**Azərbaycanda oktyabrın 6-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-15°, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.**

Rayonlarda əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı, dağlıq rayonlarda zilərdə qar yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14°, gündüz 15-18° isti, dağlarda gecə 0-4°, gündüz 4-7° isti, yüksək dağlıq ərazilərdə gecə 2-5°, gündüz 0-2° şaxta olacağı ehtimal edilir.

# Dağlıq ərazilərdə qar yağacaq




Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, oktyabrın 6-da Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü və rütubətli hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dağlıq əra-

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**